AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏRKƏZİ ELMİ KİTABXANA

# HEYDƏR ƏLİYEV
# VƏ
# AZƏRBAYCAN ELMİ

*Biblioqrafik göstərici*

*ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA HAKİMİYYƏTƏ GƏLİŞİNİN 40 İLLİYİNƏ HƏSR OLUNUR*

"Şərq-Qərb"
Bakı
2010

Azərbaycan Milli Elmlər Akademiyası
Rəyasət Heyətinin qərarı ilə çap olunur.

Biblioqrafik göstərici
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti,
**akademik Mahmud Kərimovun**
ümumi rəhbərliyi ilə hazırlanıb.

Tərtibçi-müəllif: **Aybəniz Əliyeva-Kəngərli**
*filologiya elmləri doktoru*

Elmi redaktor: **Abuzər Xələfov**
*əməkdar elm xadimi,*
*tarix elmləri doktoru, professor*

**ISBN 978-9952-34-223-9**

**Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici**.
Bakı, "Şərq-Qərb", 2010, 424 səh.

Biblioqrafik göstəricidə Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafı sahəsindəki çoxşaxəli fəaliyyətini əhatə edən materiallar əks olunmuşdur. Bu biblioqrafik göstəricinin məqsədi Azərbaycan elminin inkişafı sahəsində Ümummilli liderin imzaladığı rəsmi sənədlər, elm xadimlərinə verdiyi fəxri adlar və mükafatlar, Azərbaycanın və dünyanın elm xadimlərinin Heydər Əliyev irsinə verdiyi qiymət, Azərbaycan elminin beynəlxalq əlaqələri, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının "Heydər Əliyev irsinin təbliği" şöbəsinin fonduna daxil olan sənəd və informasiya resursları haqqında oxuculara məlumat verməkdir.

Biblioqrafik göstərici Heydər Əliyevin zəngin irsini tədqiq edən və Azərbaycan elminin tərəqqisində onun xidmətlərini öyrənən mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

© "Şərq-Qərb", 2010



*XX əsrdə Azərbaycan xalqının*
*ən böyük nailiyyətlərindən biri ölkəmizdə*
*elmin, təhsilin sürətlə inkişaf etməsidir.*

***Heydər ƏLİYEV***

## TƏRTİBÇİ-MÜƏLLİFDƏN

*Müstəqil Azərbaycanı böyük dünya siyasətinə qovuşduran siyasi liderin – Heydər Əliyevin həyatı və irsi barədə düşünərkən onun heyrətamiz intellekti, ideyaları, xüsusilə əxlaqi və siyasi siması haqqında tam təsəvvürə malik olursan. Bu dahi şəxsiyyətlə bağlı biblioqrafiya, kitab hazırlarkən isə böyük şərəf və məsuliyyət hissi keçirirsən*

Milli taleyimizin zirvəsi hesab olunan müstəqillik dövrü ümummilli liderimiz Heydər Əliyevin parlaq zəkası və nurlu əməlləri ilə sürətli inkişafın yeni mərhələsinə yol açmış və dünya dövlətlərinin diqqətini cəlb etmişdir. 34 il Heydər Əliyevin rəhbərliyi ilə xalqımız sosial-iqtisadi tərəqqi, milli oyanış, mədəni intibah, azadlıq hərəkatı mərhələsindən keçərək müstəqillik əldə etmiş, suverenliyini və milli birliyini təmin edərək onu qorumaq imkanlarına malik olmuşdur.

Heydər Əliyev istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarda əldə edilməsi mümkün olan bütün nailiyyətlərin əsasını elm və təhsildə görür, müvafiq qurumlar qarşısında milli və ümumbəşəri dəyərlərin optimal və üzvi surətdə əlaqələndirilməsi kimi mühüm vəzifələr

qoyurdu. Məsələnin bu cür qoyuluşu elm və təhsilin inkişafında mühüm əhəmiyyət kəsb edir. Çünki elm özünün təbiəti və funksiyalarına görə ümumbəşəri dəyər olduğundan, onun inkişafı dünya elmindən və informasiya sistemindən təcrid edilmiş təqdirdə mümkün deyildir. Heydər Əliyevin elmin təşkili və inkişafının idarə olunması konsepsiyasında elmi tədqiqatların informasiya təminatına mühüm əhəmiyyət verilir. Bu məqsədlə ümummilli lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan alimlərinə ittifaq respublikalarının və başqa ölkələrin alimləri ilə elmi əməkdaşlıq əlaqələrini yaratmağı, ümumittifaq elmi konfranslarda və simpoziumlarda fəal iştirak etməyi, Azərbaycan elmini ləyaqətlə təmsil etməyi məsləhət bilirdi. Hətta sovet hakimiyyəti illərində, kompyuterlərin olmadığı vaxtda, respublikada elmi tədqiqatların informasiya təminatı məsələlərinə toxunarkən Heydər Əliyev müasir texniki vasitələrin imkanlarından geniş istifadə olunması məsələsinə xüsusi diqqət yetirirdi. Bununla yanaşı, o, özündə müxtəlif xarakterli informasiyanı toplayan kitabxanalara və arxivlərin roluna yüksək qiymət verir, onların milli sərvət kimi qorunub saxlanılmasının dövlət əhəmiyyətli məsələ olduğunu dəfələrlə vurğulayırdı.

Ümummilli liderin təhsilə, mədəniyyətə, elmə, xüsusən də kitabxanalarımıza qayğısı hər birimizə yaxşı məlumdur. Bu gün dahi liderin xatirəsinə onlarca sanballı kitablar həsr olunur, Heydər Əliyev irsi öyrənilir və təbliğ edilir, gələcək nəsillərə ötürülür. Heydər Əliyevin zəngin və hərtərəfli siyasi irsini özündə cəmləşdirən kitabların, biblioqrafik vəsaitlərin hazırlanması böyük məsuliyyət və diqqət tələb

edir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən ərsəyə gətirilən bu biblioqrafik nəşr öz əhatəliliyi, çoxmənbəliliyi və informativliyi ilə seçilir. Bu nəşr kitabxanamızda fəaliyyət göstərən "Heydər Əliyev irsinin təbliği" şöbəsində son illər ərzində toplanmış dəyərli materialların göstəricisidir.

Altı bölmə və yardımçı aparatdan ibarət biblioqrafik məlumat kitabının ilk hissəsi "Heydər Əliyev və Azərbaycan elminin inkişafı" adlanır. İki yarımbölmədən ibarət olan bu bölmədə ümummilli lider Heydər Əliyevin elm və elm xadimləri haqqında, eləcə də görkəmli elm xadimlərinin Heydər Əliyev haqqında dəyərli fikirlərindən seçmələr öz əksini tapmışdır.

Biblioqrafik məlumat kitabının "Heydər Əliyev: Azərbaycan dövlətçiliyi və elmi" adlı ikinci bölməsi ulu öndər Heydər Əliyevin müstəqillik illərində nəşr edilmiş əsərləri haqqında biblioqrafik məlumatı əhatə edir. Bu bölmədə verilən "Elmin inkişafı sahəsində dövlət siyasəti" adlanan yarımbölmədə isə Ümummilli liderin Azərbaycan elminin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamları, müxtəlif vaxtlarda söylədiyi nitqləri, alim və ziyalılarla görüşlərdə etdiyi çıxışları və s. əhatə edir. *"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mədəni-ictimai həyatda çox görkəmli yer tutur. Hər birimiz, ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamaq fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq... Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən*

*amillərdən biridir"*. Heydər Əliyev elmə, kitaba verdiyi qiyməti məhz bu cür ifadə edirdi. Ümummilli lider Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini qiymətləndirərkən deyirdi: *"Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, idarəsi altında toplaşmış elmi müəssisələr böyük ixtiralar ediblər, böyük tədqiqatlar aparıblar, böyük işlər görüblər, sanballı elmi kitablar, əsərlər yaradıblar, tam qətiyyətlə demək olar ki, dünya elminə böyük töhfələr veriblər"*. Bu sözlər elmə, fundamental elmin təşkilinin optimal forması olan Milli Elmlər Akademiyasına verilən ən yüksək qiymətdir.

Biblioqrafik nəşrin üçüncü bölməsində biblioqrafik göstəricinin profilinə uyğun olaraq ulu öndər Heydər Əliyevin elmin inkişafı sahəsindəki xidmətlərinə dair görkəmli elm xadimlərinin əsərləri təqdim edilmişdir. Dünyaşöhrətli norveçli alim Tur Heyerdal Ümummilli lider haqqında deyirdi: *"Doğrusunu deyim ki, Heydər Əliyev mənə son dərəcə xoş təsir bağışladı. O, özünü həqiqi lider kimi aparır və həqiqi lider kimi danışırdı".* Tanınmış qırğız yazıçısı Çingiz Aytmatov isə deyirdi ki, Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

Kitabın dördüncü bölməsi Ümummilli liderin hakimiyyəti illərində Azərbaycanın beynəlxalq elmi əlaqələri haqqında məlumatları əhatə edir. Məlumdur ki, hələ ötən əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə ən mötəbər ali təhsil ocaqlarına təhsil almağa göndərilən gənclər sonradan elmimizin beynəlxalq səviyyədə tanınmasına, beynəlxalq elmi əlaqələrin qurulmasına böyük təkan verdi. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən elm, təhsil

müəssisələri ilə sıx elmi əməkdaşlığa başlanıldı, birgə layihələr həyata keçirildi. Sonrakı illərdə də bu tendensiya davam etdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq elmi əlaqələrin diapazonu daha da genişləndi. Azərbaycan alimlərinin elmi kommunikasiyaları intensivləşdi, bir sıra aparıcı elmi müəssisələrlə təcrübə mübadiləsinin əsası qoyuldu. Bütün bunlar öz səmərəli nəticəsini çox gözlətmədi. Təsadüfi deyil ki, bu gün ölkəmiz dünyanın ən nüfuzlu beynəlxalq elmi təşkilatlarının tamhüquqlu üzvüdür, təkcə AMEA Mərkəzi Elmi Kitabxanası 90 ölkənin 1000-dən artıq elmi təşkilatı ilə informasiya və kitab mübadiləsi həyata keçirir.

Biblioqrafik göstəricinin "Heydər Əliyev siyasətinin layiqli davamçısı" adlanan beşinci hissəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmin inkişafı sahəsindəki fəaliyyəti əhatə olunmuşdur. Bu bölmədə Prezident İlham Əliyevin elmin inkişafına dair sərəncamları, kitab şəklində nəşr olunmuş əsərləri və onun dövlətçilik fəaliyyətinə həsr olunmuş kitabları öz əksini tapmışdır.

Nəşrin altıncı bölməsi "Heydər Əliyev irsinin tədqiqi" adlanır. Bu bölmədə Heydər Əliyev şəxsiyyətinə həsr olunmuş kitablar, dissertasiya və avtoreferatlar, məqalələr, elektron resurslar və multimedia vasitələri haqqında məlumat oxucuların diqqətinə çatdırılır. Ümumiyyətlə, bu nəşr Heydər Əliyevin biblioqrafiyasının yaradılması sahəsində ilk təcrübələrdəndir. Burada oxucuların işini asanlaşdırmaq məqsədilə Azərbaycan, rus, türk, ingilis və fransız dillərində "Müəlliflərin əlifba göstəricisi" adlı köməkçi aparat da tərtib olunub. Heç şübhəsiz ki, bu nəşr gələcəkdə Heydər

Əliyev irsinin öyrənilməsinin genişlənməsi ilə əlaqədar bir neçə dəfə yeni əlavələrlə nəşr olunacaq və oxucuların istifadəsinə veriləcəkdir. Heydər Əliyev irsinin tədqiqi və təbliği istiqamətində aparılan işlər inkişaf etdikcə bu qəbildən olan nəşrlərin də sayı artacaqdır.

Heydər Əliyev irsi gələcək nəsillər üçün örnəkdir! Ümummilli liderin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev elm, təhsil və mədəniyyət sahəsində Heydər Əliyevin strategiyasını ardıcıl şəkildə həyata keçirir. Ölkə başçısının 2003-cü il noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman respublikanın tərəqqisində yeni mərhələnin əsasını qoydu. Elmi ictimaiyyət inanır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il aprelin 10-da imzaladığı "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" fərman elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsini, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını, tərəqqisini sürətləndirəcəkdir.

# HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN ELMİNİN İNKİŞAF STRATEGİYASI

Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli-siyasi təfəkkürümüzdə, dövlətçilik şüurumuzda çox böyük məna yükünü daşıyan fenomenə çevrilmişdir. Bu fenomeni bu böyük insanın öz millətinə, Vətəninə həsr olunan, hər səhifəsi son yarıməsrlik tariximizin canlı salnaməsi olan ömür kitabı, 30 ildən artıq Azərbaycana rəhbərlik fəaliyyəti, xalqın ona – ümid və nicat mənbəyi kimi baxdığı öz həqiqi liderinə olan böyük sevgisi və inamı yaratmışdır.

Bu gün Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Çünki Heydər Əliyev şəxsiyyəti fərdi-subyektiv ölçülərə, bütövlükdə tarixə, zamana sığmır. Özünün böyük həyatı ilə zamanın çərçivəsinə sığmayan bir insan sözə heç vaxt sığa bilməz. Çünki bu tarixi şəxsiyyətin

fəaliyyətinin hər səhifəsi, hər mərhələsi son əlli illik Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür, bəzən hətta indi arxada qalmış o tarixin bütövlükdə dərkini şərtləndirir.

Müstəqil Azərbaycan dövlətinin hər bir atributu Heydər Əliyevin adıyla, onun yorulmaz fəaliyyəti ilə bağlıdır. O, çiyinlərində bütöv bir xalqın varlığını, bütün bəşəri keyfiyyətlərini, dövlətçilik missiyasını daşıyan böyük lider kimi millətin xarakterini, milli iradəni atdığı hər bir addımında əks etdirirdi. O, Azərbaycanın, eləcə də dünyanın siyasət arenasına yeni siyasi mədəniyyət gətirmişdi. Dövlətçilik tariximizin müasir mərhələsinin kəsilməzliyini təmin etməklə yanaşı, tarixi şüurumuzun bərpa olunması sahəsində məqsədyönlü fəaliyyət göstərdi. Azərbaycan gerçəkliyini, onun ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi-nəzəri sistem – dövlət quruculuğu fəlsəfəsi, dövlətçilik ideologiyası yaratdı.

Məlumdur ki, müasir cəmiyyətin inkişafı, hər şeydən əvvəl, elmi biliklərə əsaslanır və həyatın bütün sahələrində buna tələbat getdikcə artır. Bu da elmin inkişafını müasir dövrün ən aktual problemlərindən birinə çevirir. Elmin inkişafı isə öz növbəsində bu sferada çalışanların kəmiyyət və keyfiyyət quruluşunun təkmilləşdirilməsini və onlardan daha səmərəli istifadə olunmasını tələb edir.

Müasir Azərbaycanın son yarım əsrlik tarixinə nəzər yetirdikdə ölkəmizin gələcəyinə istiqamətlənmiş, effektli və davamlı inkişafını təmin edən, uzunmüddətli şərtlərin təminatını, intellektual və elmi potensialın inkişafını nəzərdə tutan, cəmiyyətin həyatına nüfuz etmiş praqmatik siyasətin təzahürlərini görürük. Hamımıza aydındır ki, Azərbaycanın

müstəqilliyinə yönəlmiş bu müdrik siyasətin təməli hələ sovetlər dövründə – XX əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz bu illərdə xalqın azadlıq idealları, azərbaycançılıq, dövlətçilik dəyərləri şüurlarda geniş meydan tapdı. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşdı, zəruri tarixi-mənəvi prosesə çevrildi.

Bəli, ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin dərinliyi məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala arxalanmasında idi. Respublikada rəhbərlikdə olduğu bütün dövrlərdə Azərbaycan elminə göstərdiyi qayğı və dəstək elə buradan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, intellektdə görürdü. Bu dahi insan elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi və araşdırıcısı idi. O, həm də polad iradəsi, dəmir məntiqi və dərin mənalı nitqi ilə istənilən auditoriyanı sükuta qərq edən gözəl natiq idi. Bütün bunların fövqündə Heydər Əliyev təkrarsız bir insan, onun keçdiyi yol isə zəngin bir həyat ensiklopediyası idi. Hələ bundan sonra neçə nəsil bu zəngin ensiklopediyanı sətir-sətir öyrənəcək, özünə bir əqidə yolu seçəcək.

Akademiyanın çoxminli kollektivi fəxr edir ki, Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışı məhz Akademiyadan başlayıb. Azərbaycan tarixinin dönüş nöqtələrindən biri olan 1993-cü ildə Naxçıvandan Bakıya – müstəqil dövlət quruculuğuna qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüş yeri kimi Elmlər Akademiyasını seçdi.

Bununla o, türk dövlətçilik ənənələrini sistemli şəkildə davam etdirən görkəmli dövlət xadimi kimi yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu, bir tərəfdən möhtərəm Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən Azərbaycan ziyalılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi. Azərbaycan Prezidenti cənab İlham Əliyev AMEA-nın 60 illik yubileyindəki çıxışında məhz bu məqamı xatırlayaraq Ümummilli liderimizin bu müdrik addımına belə aydınlıq gətirmişdir: *"O görüş rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir".*

2002-ci ilin son təqvim günü mənim yaddaşımda xoş bir xatirə kimi qalıb. Akademiyanın rəhbəri kimi məni qəbul edən möhtərəm Heydər Əliyev bu addımı ilə elmin və elm adamlarının onun dövlətçilik fəaliyyətində hansı mərtəbədə durduğunu bir daha ictimai fikrə çatdırdı. Çox səmimi şəraitdə keçən bu görüşdə mən Ümummilli liderimizin sözün bütün mənalarında bir daha Böyüklüyünün, İnsanlığının, Humanistliyinin və Müdrikliyinin şahidi oldum. O, ensiklopedik biliyə malik filosof-alim kimi Azərbaycan elminin inkişaf tarixinə nəzər saldı, fundamental və tətbiqi tədqiqatların, ictimai və humanitar araşdırmaların günün tələblərinə uyğun inkişaf dinamikasına toxundu. Respublikanın inkişaf strategiyasına uyğun yeni islahatların apa-

rılması zəruriyyətini vurğuladı, elmin yüksələn xətlə inkişafının strategiyasını müəyyənləşdirməyi tapşırdı.

Çox keçmədən, yəni 2003-cü il 4 yanvar tarixli fərmanı ilə Akademiyaya müstəqil dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verdi. Ümummilli liderimizin bilavasitə köməyi və qayğısı ilə elmin əhatəli inkişafı və Milli Elmlər Akademiyasında keçiriləcək islahatların konsepsiyası hazırlandı.

Qeyd edildiyi kimi, elm, texnologiya və təhsili əhatə edən sistemli siyasət, dünya təcrübəsinin sübut etdiyi kimi, gələcək iqtisadi inkişafın başlıca təminatçısıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, *"…müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük ki, ölkələrin inkişafını, potensialını elmin inkişafı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirsək, onu da görəcəyik. Nə təbii ehtiyatlar, nə coğrafi vəziyyət yox, məhz intellektual potensial, məhz elmin səviyyəsi o ölkələrin tərəqqisini müəyyən edir, təmin edir və ölkəni inkişaf etmiş ölkəyə çevirir"*. Bu baxımdan elm və texnika sahəsində dövlət siyasətinin formalaşması bir sıra fakt və müddəalara görə ictimai və siyasi təfəkkürü qabaqlamalıdır.

Heydər Əliyev dühasının fövqəladəliyi onda idi ki, o həm keçid dövrünün ictimai-siyasi və sosial-iqtisadi çətinliklərinə qarşı rasional təfəkkürlə mübarizə apararaq bu sınaqdan uğurla çıxdı, həm də yeni mərhələdə dövləti idarə edə biləcək yeni siyasi güc mərkəzi yaratdı.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli liderimizin siyasi kursunu yeni şəraitin tələblərinə uyğun şəkildə, yaradıcılıqla inkişaf

etdirir. Təsadüfi deyildir ki, artıq milli strateji inkişaf konsepsiyasını Prezident İlham Əliyevin rəhbərliyi altında ardıcıl şəkildə həyata keçirən Azərbaycan keçid mərhələsinə yekun vuraraq yeni – ictimai özünüdərk mərhələsinə qədəm qoymuşdur. Azərbaycan bu gün liberallaşmanın və vətəndaş cəmiyyəti formalaşmasının bazisini yaradır. Azərbaycan avroatlantik məkana inteqrasiya edən bir ölkə kimi bu gün dünyada gedən proseslərdən kənarda qalmamaq, əksinə, öz siyasi, iqtisadi və elmi potensialından istifadə edib ağırlıq mərkəzlərindən birinə çevrilmək istəyindədir.

Beləliklə, yeni dünya nizamını formalaşdıran ümumdünya transformasiyaları dövründə Azərbaycan "qlobal demokratik yürüşün" tərkibində olmaq arzusundadır. Azərbaycan zamanın tələbləri ilə ayaqlaşmaq məcburiyyətindədir. Əks halda o, bu prosesin önündə deyil, yedəyində gedəcək. Ümummilli liderimizin qeyd etdiyi kimi: *"XXI əsrdə yalnız yüksək elmi potensiala və elmi tutumlu texnologiyaya malik ölkələr öz xalqları üçün xoşbəxt və firavan həyat tərzi təmin etmək imkanına malik olacaq"*. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tutduğu mövqe də bunu tam şəkildə əks etdirir.

Ümummilli liderimizin böyük diqqət yetirdiyi Azərbaycan elminin inkişaf konsepsiyası bu gün dövlət siyasətinin tərkib hissəsi kimi uğurla davam etdirilir. Prezident İlham Əliyevin son aylarda bu istiqamətdə imzaladığı sərəncamlar, xüsusilə "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" və "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının

yaradılması haqqında" sərəncamlar öz gələcəyini möhkəm və sağlam elmi zəmində qurmaq istəyən qüdrətli Azərbaycanın işıqlı gələcəyinə istiqamətlənmiş dəyərli addımlardır.

Müasir dünyada baş verən proseslər ölkədə elmi zəminə əsaslanmış gələcəyin düzgün strateji inkişaf modelini müəyyənləşdirmək üçün elmi diskussiyaların aparılmasını, elmi fəaliyyətin intensivləşməsini tələb edir. Elmi fəaliyyətin intensivləşməsi isə öz növbəsində elmi-texniki fəaliyyətin bazar qanunlarına uyğunlaşdırılması, inkişaf etmiş ölkələrlə elmi-texniki əməkdaşlıq əlaqələrinin yaradılması, inkişafın dünya səviyyəsinə çatdırılması və s. kimi bir sıra məsələlərin həllini qarşıya qoyur. Bizim hər birimiz bu prosesə qoşulmalı, dövlət və cəmiyyətimizin ictimai-sosial həyatında daha əzmlə iştirak etməliyik.

Hazırda Azərbaycan elmində islahatlar aparmağın, elmimizi müasir dünyanın və ölkəmizdə sürətlə gedən inkişafın tələblərinə uyğun qurmağın əsl vaxtıdır. Əminəm ki, Azərbaycan Prezidentinin sərəncamı ilə məhz bu niyyətlə yaradılmış Dövlət Komissiyasının məqsədyönlü fəaliyyəti, əldə olunan nəticələr Azərbaycan elminin keyfiyyətcə daha yüksək pilləyə keçməsinə imkan verəcəkdir.

2009-cu il Azərbaycanın həyatında siyasi qərarların qəbul ediləcəyi mühüm dövrdür. Təbiidir ki, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi əsas məqsədlərimizdən biridir. Artıq Azərbaycanda demokratik informasiya prosesi intensiv inkişaf etməkdə, vətəndaş cəmiyyətinin strukturları və təsisatları formalaşmaqdadır. Əslində, bu, ümummilli liderimizin ideya-siyasi və fəlsəfi konsepsiyasını uğurla davam etdirən və ölkəmizin

qüdrətli gələcəyinə işıq salan Prezident İlham Əliyevin üzərinə götürdüyü şərəfli tarixi bir missiyadır. Azərbaycanımızın işıqlı gələcəyinə istiqamətlənmiş bu siyasi kursun ətrafında daha sıx birləşməli və üzərimizə düşən vəzifələri əzmlə və məsuliyyətlə yerinə yetirməliyik.

***Mahmud KƏRİMOV,***
*Azərbaycan Milli Elmlər*
*Akademiyasının prezidenti*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ELMİN İNKİŞAFI

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ELMİN İNKİŞAFI

## HEYDƏR ƏLİYEV ELM VƏ ELM XADİMLƏRİ HAQQINDA

*XX əsr sona çatır. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir. Biz tarixi keçmişimiz haqqında söhbət açanda tarixin bütün mərhələlərində Azərbaycan xalqının görkəmli elm xadimləri haqqında qürur hissi ilə danışırıq və bu, xalqımızın nə qədər istedadlı olduğunu nümayiş etdirir. Biz bununla daim fəxr edirik. Ancaq eyni zamanda o da həqiqətdir ki, ölkəmizdə – Azərbaycanda elm XX əsrdə çox sürətlə inkişaf etmişdir. XX əsrdə Azərbaycanda xalqın təhsillənməsi, yüksək təhsil ocaqlarının, institutların yaranması, xalqın təhsilə, ali təhsilə cəlb olunması, elmi-tədqiqat institutlarının yaranması, elmi tədqiqat işlərinin təşkil olunması və bunların nəticəsində 50 il bundan öncə Azərbaycanda ilk dəfə Elmlər Akademiyasının yaranması – bunların hamısı XX əsrdə Azərbaycanda elmin sürətlə inkişafını nümayiş etdirən faktlardır.*

◆◆◆

*Azərbaycan xalqı yüksək elmə, biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir.*

◆◆◆

*İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşf etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar.*

◆◆◆

*XX əsrin əvvəlində Azərbaycanda elmin inkişafı yeni vüsət alıbdır. Azərbaycanda elmi müəssisələr yaranıb, 1919-cu ildə ilk universitet həm yüksək təhsil ocağı, həm də Azərbaycan elmini birləşdirən, onu inkişaf etdirən böyük bir müəssisə, böyük elm ocağı olubdur.*

◆◆◆

*Əlli il bundan öncə Elmlər Akademiyasının yaranması Azərbaycanın çoxəsrlik tarixində mühüm bir hadisədir.*

◆◆◆

*Azərbaycanın Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır.*

◆◆◆

*Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir, ötən dövrdə Elmlər Akademiyasının çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir.*

◆◆◆

*Biz bu il Azərbaycan Elmlər Akademiyasının 50 illik yubileyini qeyd edirik. Bu, dərin iftixar hissi doğurur ki, Azərbaycanın böyük elmi yaranmışdır. Bu elm dünya elmi sırasında özünəməxsus yer tutmuşdur. Azərbaycanın dünyada tanınmış alimləri yaranmış, onlar dünya elminə, mədəniyyətinə böyük töhfələr vermiş, bunları zənginləşdirmişlər.*

◆◆◆

*Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər də, ali məktəblər də inkişaf etməlidir. Ancaq bunlarda qayda-*

*qanun olmalıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün istiqamətləri inkişaf edəcəkdir.*

◆◆◆

*Elmi axtarışın səmərəliliyini yüksəltmək, öz əməyində yüksək nəticələrə nail olmaq, bu nəticələrin praktikada tətbiqini sürətləndirmək alimlərin ən mühüm vəzifəsi və borcudur.*

◆◆◆

*Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir.*

◆◆◆

*Azərbaycan xalqının həyatında, onun ali təhsilinin inkişafında, elminin inkişafında Bakı Dövlət Universiteti böyük xidmətlər göstərmişdir.*

◆◆◆

*Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır.*

◆◆◆

*Pedaqogika elminin qarşısında duran vəzifələrin ölçüyəgəlməz dərəcədə artması Respublika Elmi-Tədqiqat Pedaqogika İnstitutunun işini xeyli yaxşılaşdırmağı tələb edir. Alimlərimiz müasir pedaqogika elminin aktual problemlərini dərindən işləyib hazırlamalı, qabaqcıl təcrübəni ümumiləşdirməli və yaymalı, pedaqoji kollektivlərə, xüsusən kənd məktəblərinin pedaqoji kollektivlərinə metodiki yardımı gücləndirməlidirlər.*

◆◆◆

*Bu da tam həqiqətdir ki, XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər.*

◆◆◆

*Həm xalqımıza, həm də dünyaya nümayiş etdirək, sübut edək ki, xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir.*

◆◆◆

*Xalq həmişə öz ziyalıları ilə, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir.*

◆◆◆

*Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır.*

◆◆◆

*XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir.*

◆◆◆

*Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun*

*üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.*

◆◆◆

*Azərbaycanda islamşünaslıq sahəsində XX əsr demək olar ki, tamam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır.*

◆◆◆

*Bildiyimiz kimi, müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var. Azərbaycanda böyük universitetlər fəaliyyət göstərir, professorlar, elm adamları, mədəniyyət xadimləri, görkəmli sənətkarlar var… onların adları bütün dünyada məşhurdur, onlar Azərbaycan elmini, mədəniyyətini bütün dünyaya tanıdıblar… Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyini əldə edib. İndi Azərbaycan müstəqil bir dövlətlər, dünya dövlətləri birliyinin üzvüdür və onların tərəfindən tanınıbdır. Bunların hamısı Azərbaycan ziyalılarının, siyasətçilərinin, görkəmli şəxsiyyətlərinin xidmətlərinin nəticəsidir.*

◆◆◆

*Texnika, elm, texnologiya çox sürətlə inkişaf edir. Ona görə gərək biz də Azərbaycanda çalışaq*

*ki, bu inkişafda öz yerimizi tapaq, sürəti yavaş-yavaş artıraq və qabaqda gedənlərin səviyyəsində olaq.*

◆◆◆

*Azərbaycanın elmi-texniki səviyyəsini inkişaf etdirmək üçün yüksək təhsilə, elmə nail olmalıyıq.*

◆◆◆

*Ölkəmizin, xalqımızın bütün sahələrdə yüksək ixtisasa malik, dünyada gedən elmi-texniki proseslərlə ayaqlaşan, müəyyən istiqamətlərdə onları qabaqlamağa qadir olan kadr potensialı olmalıdır.*

◆◆◆

*Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi intellektual potensialı ilə yanaşı, onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradan cəhətlərindən biri də ölkəmizin coğrafi mövqeyidir.*

◆◆◆

*Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.*

◆◆◆

*Mədəniyyətimizin, elmimizin, təhsilimizin insanların mənəviyyatını daha da yüksəklərə qaldırması üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir.*

◆◆◆

*Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.*

◆◆◆

*Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.*

◆◆◆

*Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır.*

◆◆◆

*Böyük siyasətlə, dövlət işi ilə məşğul olan şəxslər bəlkə də xüsusi elmi məqalələr, kitablar yazmırlar. Ancaq onların gündəlik ictimai-siyasi fəaliyyəti, böyük dövlət işinə rəhbərlik etməsi,*

*dövlət əhəmiyyətli məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır.*

◆◆◆

*Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır.*

◆◆◆

*Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.*

◆◆◆

*20-ci illərin, 30-cu illərin repressiyaları on minlərlə insan həyatını məhv etmişdir. On minlərlə azərbaycanlı öz yurdlarından uzaq yerlərə sürgün olunmuşdur. Onların hüquqları pozulmuş, var-yoxları əllərindən alınmış, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni və mənəvi irsə böyük zərbələr vurulmuşdur. O illərin qurbanları minlərlə, on minlərlə, bəlkə yüz minlərlə olmuşdur. Onların arasında Azərbaycanın görkəmli şəxsləri – Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz və başqa dəyərli insanlar olmuşdur. Eyni zamanda, o dövrdə Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar.*

◆◆◆

*O illərin (sovet dövrü – red.) ağırlıqları, çətinlikləri ilə yanaşı, böyük nailiyyətlər də olmuşdur. Ən böyük nailiyyət bundan ibarət olmuşdur ki, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.*

◆◆◆

*1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradıbdır.*

◆◆◆

*Xalqımız XX əsrin əvvəlindən indiyədək çox şərəfli bir yol keçmişdir. Bu yol ondan ibarətdir ki, xalqımızın mədəni, təhsil səviyyəsi artmış, mədəniyyətimiz yüksəlmiş, elmimiz, böyük iqtisadi potensialımız yaranmışdır. Xalqımızın həyat*

*tərzində, dünyagörüşündə böyük dəyişikliklər əmələ gəlmiş, böyük bir siyasi-ictimai proses başlamışdır. Bunlar hamısı keçdiyimiz dövrün, onun mərhələlərinin bəhrəsi, nəticəsidir.*

◆◆◆

*İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir… dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır.*

◆◆◆

*Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Onun yüksək təfəkkürə, yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır.*

◆◆◆

*Alim olmaq üçün birincisi, gərək fitri istedada malik olasan. İkincisi, gərək fitri istedadından istifadə edib, seçdiyin sənəti sevəsən və həmin elm sahəsini mənimsəmək üçün fədakarlıq göstərəsən. Üçüncüsü, gərək sən daim öz üzərində işləyəsən və bunların nəticəsində də böyük alim, müəllim ola bilərsən.*

◆◆◆

*... belə düşünürəm ki, xalqımız dözümlü olduğu kimi, ziyalılarımız da, alimlərimiz də ən mətanətlilərdəndir. Mən bütün bu çətinlikləri bilərək ziyalılarımıza, müəllimlərimizə müraciət edirəm: Gənclərimizin təlim-tərbiyəsi işinə, təhsil, tədris işinə diqqətinizi azaltmayın. Əksinə, belə bir şəraitdə diqqət, qayğı daha da artmalıdır. Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq, öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəkdir.*

◆◆◆

*Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir.*

◆◆◆

*Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir.*

◆◆◆

*Bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir.*

◆◆◆

*Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.*

◆◆◆

*Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir.*

◆◆◆

*Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.*

◆◆◆

*Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, pub-*

*lisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir.*

◆◆◆

*Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir.*

◆◆◆

*Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.*

◆◆◆

*Hüseyn Cavidin əsərləri xalqa hava, su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır…*

◆◆◆

*Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.*

◆◆◆

*Mustafa bəy Topçubaşov elm, təhsil, səhiyyə ilə məşğul olduğu qədər də ictimai sahədə böyük xidmətlər göstərmişdir. Azərbaycan ictimaiyyəti arasında Mustafa Topçubaşov həmişə çoxsahəli fəaliyyəti ilə məşhur olubdur.*

◆◆◆

*O illər (sovet dövrü – red.) mədəniyyətimizdə, ədəbiyyatımızda, elmimizdə böyük şəxsiyyətlər yetişibdir. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev kimi dahi bəstəkarlarımız yeni əsərlər yaratmışlar. Cəfər Cabbarlı kimi dahi yazıçımız Azərbaycan xalqına böyük ədəbi töhfələr vermişdir. Ədəbiyyatımızda Səməd Vurğun, Rəsul Rza, Süleyman Rəhimov kimi böyük şəxsiyyətlər yetişmişdir. Alimlərimiz – Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mirzə İbrahimov, bir çox başqa alimlər 1945-ci ildə ilk dəfə Azərbaycanın böyük elmini bir yerə yığıb Elmlər Akademiyası yaratmışlar. Bunların hamısı o çətin, ağır illərin, eyni zamanda, böyük nailiyyətləridir.*

◆◆◆

*Səməd Vurğun böyük alim, filosof idi. Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının*

*təsisçilərindən, yaradıcılarından biridir. Səməd Vurğun Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir.*

◆◆◆

*Səməd Vurğunu biz təkcə şair kimi, alim kimi, yazıçı kimi yox, eyni zamanda böyük bir ictimai-siyasi xadim kimi həmişə xatırlayırıq və o, tariximizə belə daxil olubdur.*

◆◆◆

*Ayrı-ayrı alimlər öz əsərləri ilə tanınır. Amma elmi təşkil edənlər, elmi inkişaf etdirənlər öz əsərlərindən savayı, xidmətləri ilə də tanınır və qiymətləndirilir (akad. Y.Məmmədəliyev haqqında – red.).*

◆◆◆

*Elm xadimi kimi, ictimai-siyasi xadim kimi Azərbaycan elmində görkəmli yer tutan və respublikamızın ziyalıları içərisində çox böyük hörmət qazanan Yusif Məmmədəliyev Azərbaycan*

*mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafında da əvəzsiz xidmətlər göstərmişdir… O, humanitar sahələrə, elmin mədəniyyətlə, ədəbiyyatla, tarixlə əlaqədar sahələrinə həddindən artıq fikir vermiş və onlarla bilavasitə məşğul olmuşdur. Buna görə də Yusif Məmmədəliyev bir alim kimi, bir insan kimi, hərtərəfli yüksək keyfiyyətlərə malik şəxsiyyət kimi tanınmışdır… O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir.*

◆◆◆

*Moskvada böyük bir dövlətin yüksək sənaye kompleksinin elmi-texniki şurasının rəhbəri Yusif Məmmədəliyevin – azərbaycanlının, Azərbaycan xalqının nümayəndəsinin olması təkcə Yusif Məmmədəliyev üçün deyil, həm də bütün Azərbaycan xalqı üçün iftixar hissi doğururdu.*

◆◆◆

*Xalqımız Yusif Məmmədəliyev kimi şəxsiyyətlərlə tanınır və fəxr edir.*

◆◆◆

*Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük başəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.*

◆◆◆

*Ziya Bünyadov xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. Elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. O, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır. O, insan üçün xas olan, bəzən də yalnız nadir insanlara xas olan keyfiyyətləri özündə cəm edən bir insandır.*

◆◆◆

*Ziya Bünyadovun xüsusi keyfiyyəti ondan ibarətdir ki, hərbçi zabit, qəhrəman, döyüşçü keyfiyyətləri ilə yanaşı, o həm də İkinci Dünya müharibəsi bitəndən sonra özünü elmə həsr etmişdir.*

◆◆◆

*Ziya Bünyadovun Azərbaycan elmində öz dəst-xətti, öz yolu, müstəqil fikri olmuşdur və özünəməxsus böyük xidmətləri var. O, alimlərin, akademiklərin, professorların içərisində öz*

*elmi yaradıcılığına, elmi əsərlərinə görə və elmdə tutduğu mövqelərinə, prinsipiallığına görə seçilən, fərqlənən bir alim idi. Bunu anlamaq, bilmək lazımdır. Bunu bütün xalqımız bilməlidir. Onun elmi yaradıcılığı, Azərbaycana, Azərbaycan elminin inkişafına göstərdiyi xidmətlər haqqında kitablar, əsərlər yazılmalıdır.*

*Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar.*

◆◆◆

*Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir.*

◆◆◆

*Yüksək professional səviyyəli musiqi əsəri, sənət əsəri yazmaq, ortaya çıxarmaq, şübhəsiz ki, böyük istedad tələb edir. Arif Məlikov belə bir fitri istedada malik insandır.*

◆◆◆

*Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.*

◆◆◆

*Biz tarixi keçmişimiz haqqında söhbət açanda tarixin bütün mərhələlərində Azərbaycan xalqının görkəmli elm xadimləri haqqında qürur hissi ilə danışırıq və bu, xalqımızın nə qədər istedadlı olduğunu nümayiş etdirir.*

◆◆◆

*Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə hörmətə layiqdirlər.*

◆◆◆

*İhsan Doğramacı bir insan kimi çox gözəl qəlbə malik, çox xeyirxah, adamlara yardım etmək istəyən, xalqını inkişaf etdirmək istəyən bir insandır.*

◆◆◆

*Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə öyünməyə haqqı var.*

◆◆◆

*Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən*

*və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir.*

◆◆◆

*Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri bilikləri tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.*

◆◆◆

*Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.*

◆◆◆

*Müstəqil Azərbaycanın həm dövlətini, həm siyasətini, həm iqtisadiyyatını, həm də elm və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış adamlar inkişaf etdirib irəlilədə bilərlər.*

## GÖRKƏMLİ ELM XADİMLƏRİ HEYDƏR ƏLİYEV HAQQINDA

### *Fikirlərdən seçmələr*

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və milləti zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

Xalqımızın müəyyən bir dövr tarixi və taleyi ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, həyatının bütün dövrlərində həmişə öz xalqı ilə birlikdə olmuş, onun bir millət və dövlət kimi inkişafı naminə həyatını belə əsirgəməmişdir.

***Mehriban Əliyeva,***
*millət vəkili, YUNESKO və*
*İSESKO-nun xoşməramlı səfiri,*
*Heydər Əliyev Fondunun prezidenti*

◆◆◆

Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub-saxlanılmasına müvəffəq olmuşdur.

◆◆◆

Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsindən, dərin təfəkküründən, biliyindən, dünyagörüşündən və fitri siyasətçi

istedadından istifadə edərək milli dövlətçilik ənənəsinin etibarlı bazasını yaratmalıyıq.

***Ramiz Mehdiyev,***
*Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik*

Bu gün XXI əsrin astanasında, ötən əsrin siyasi kolliziyalarını dərk etməyə çalışarkən xüsusi dəqiqliklə başa düşürük ki, Heydər Əliyevin bütün siyasi fəaliyyəti, siyasi proqramları, nitq və çıxışları dövr və zəmanəmizi ifadə edən əzəmətli bir abidədir. Özü də qeyri-adi bir abidədir. Bu qeyri-adilik bir yandan Heydər Əliyevin şəxsiyyəti ilə bağlıdırsa, digər tərəfdən Azərbaycanın öz tale və tarixinin qeyri-adiliyi ilə əlaqədardır.

***Fatma Abdullazadə,***
*Azərbaycan Respublikası Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor*

Heydər Əliyev elmə, alimə həmişə yüksək qiymət vermişdir. Bunun ilk səbəbi özünün də elmi təfəkkür sahibi olması, öz fəaliyyətini həmişə elmi prinsiplər üzərində

qurması, intellektual potensiala arxalanmasıdır. Azərbaycan elminə respublikada rəhbərlikdə olduğu bütün dövrlərdə göstərdiyi qayğı və dəstək elə buradan qaynaqlanır…

Möhtərəm Heydər Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyətinin tarixini izləsəniz, görərsiniz ki, o, Elmlər Akademiyasına diqqət və qayğısını heç vaxt əsirgəməmişdir. Bu elm ocağının yeni yüksəlişi də məhz Heydər Əliyevin adı ilə bağlıdır.

***Mahmud Kərimov,***
*Azərbaycan Milli Elmlər*
*Akademiyasının prezidenti, akademik*

Heydər Əliyev vətən elminin hamisi, alimlərin böyük dostu, XX əsrin qüdrətli siyasi lideri idi.

***Arif Həşimov,***
*akademik*

Heydər Əliyev siyasətinin əsas məqsədi mövcud iqtisadi ehtiyatları və intellektual potensialı qoruyub saxlamaq, ondan səmərəli istifadə etmək, ölkənin iqtisadi və hərbi qüdrətini möhkəmləndirmək, ərazi

bütövlüyünü təmin etmək və xalqın həyat və səviyyəsini, sosial vəziyyətini yaxşılaşdırmaq və onun xoşbəxtliyinə nail olmaqdan ibarətdir.

***Arif Mehdiyev,***
*akademik*

Ölkəmizi və xalqımızı bütün dünyada tanıdan böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin ana dilimizin müstəqil dövlət dili kimi mövcudluğu, inkişafı və dünya miqyasında tanınmasında böyük xidməti var.

***Ağamusa Axundov,***
*akademik*

Heydər Əliyev dühasının müstəqil Azərbaycan Respublikasının tibb elmi sahəsindəki müqəddəs xidmətlərinin silinməz izləri əbədi yaşayacaq, gələcək nəsillər üçün örnəyə çevriləcəkdir.

***Əhliman Əmiraslanov,***
*akademik*

Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminə, ədəbiyyatına və mədəniyyətinə, bütünlükdə mənəviyyatımıza gös-

tərdiyi atalıq qayğısı hələ bundan sonra özünün daha böyük nəticələrini verəcəkdir.

***Bəkir Nəbiyev,***
*akademik*

XX əsrin ikinci yarısı və XXI əsrin ilk illərində bir qərinədən artıq vaxt ərzində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövr Azərbaycanın tarixində milli dirçəlişin və yüksəlişin ən əhəmiyyətli mərhələsi olmuşdur.

***Asəf Nadirov,***
*akademik*

Doğma xalqına qəlbən bağlı olan, onun səadəti naminə əlindən gələni əsirgəməyən Heydər Əliyev xalqımızın müdriklik simvoluna çevrilmişdir.

***Akif Əlizadə,***
*akademik*

Xalqımız xoşbəxtdir, onun rəhbəri böyük dövlət xadimi olmaqla yanaşı, həmçinin hərtərəfli gözəl alimdir.

***Cəmil Quliyev,***
*akademik*

Heydər Əliyev elə nadir fitri məharətə malik siyasətçidir ki, bütün dünyəvi, bəşəri məsələlərə eyni diqqət və qayğı ilə yanaşır və gözəl siyasəti ilə hər bir sahənin aparıcı olaraq irəlidə getməsinə nail olur.

***Nailə Vəlixanlı,***
*akademik*

Respublika iqtisadiyyatının, sənayesinin və kənd təsərrüfatının ən çətin problemlərinin uğurlu həlli ilə yanaşı, Heydər Əliyev elmə, elmi-texniki tərəqqiyə, müasir texnologiyalara mühüm yer ayırmağı xüsusi vurğulamışdır.

***Vaqif Fərzəliyev,***
*akademik*

Respublikamızın kimya elminin və kimya sənayesinin inkişafında Heydər Əliyevin rolu misilsizdir.

***Toğrul Şaxtaxtinski,***
*akademik*

Respublikamızda müasir sənaye və kənd təsərrüfatı müəssisələrinin yaradılmasında, nəhəng tikinti-quruculuq işlərinin həyata

keçirilməsində, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin mənimsənilməsində, milli kadrların yetişdirilməsində, onların vətənpərvərlik ruhunda tərbiyəsində, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasında və inkişaf etdirilməsində Heydər Əliyev fenomeni danılmazdır.

***Akif Hacıyev,***
*akademik*

Elmimizin, mədəniyyətimizin, mənəviyyatımızın inkişaf yollarını, yüksəlişimizin əsas amillərini Heydər Əliyevdən öyrənməliyik və öyrətməliyik.

***Vasim Məmmədəliyev,***
*akademik*

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə göstərdiyi böyük diqqət və qayğı regionda elm və təhsilin inkişafına, burada elmi qüvvələrin keyfiyyət və kəmiyyət artımına böyük təkan vermişdir.

***İsa Həbibbəyli,***
*akademik*

Bütünlükdə XX əsr Azərbaycanda elmin sürətli inkişafı əsri hesab edilir və etiraf etmək lazımdır ki, onun ən məhsuldar dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə aiddir.

***İsmayıl Hacıyev,***
*akademik*

Heydər Əliyev böyük siyasətin, böyük diplomatiyanın Füzulisidir.

◆◆◆

Heydər Əliyev Azərbaycan intellektini məhv olmaqdan qurtardı.

◆◆◆

Heydər Əliyev alim adına yüksək qiymət verdi və bunu xalq bilir.

***Fəraməz Maqsudov,***
*akademik*

Əbədi Prezidentimizin qətiyyəti, uzaqgörənliyi, qeyri-adi fenomenal yaddaşı, güclü məntiqi, ensiklopedik biliyi, zəngin təcrübəsi gör-götür məktəbimiz olacaqdır. Təkraredilməz şəxsiyyəti, parlaq siması,

dözümü, əzmi, hünəri, zəfəri, qələbəsi, təntənəsi bizi uğurdan uğura aparacaqdır.

***Teymur Bünyadov,***
*akademik*

Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır. Bu elə bir iqtisadi sistemdir ki, o, respublikamızın perspektiv inkişafı, xalqın yaşayış səviyyəsinin yüksəldilməsi imkanlarını reallaşdırmağa güclü zəmin yaratmağa qadirdir....

***Ziyad Səmədzadə,***
*akademik*

Bu nəşrə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici ölkələrin dövlət və hökumət başçıları ilə görüşləri daxil edilmişdir.

513. **Prezident İlham Əliyev: yüksək səviyyədə görüşlər: 2003-2008-ci illər**. 3 cilddə.

**C.2** / Azərbaycan Respublikası Prezidentinin Katibliyi. – Bakı: 2008. – 541 s.

**514. Prezident İlham Əliyev: yüksək səviyyədə görüşlər: 2003-2008-ci illər**. 3 cilddə. C.3 / Azərbaycan Respublikası Prezidentinin Katibliyi. – Bakı: 2008. – 518 s.

**515. Seyidov M.** İnamla, İlhamla sabaha doğru / M.Seyidov; red.: M.Abbasov. – Bakı: Adiloğlu, 2003. – 213 s.

Müəllif poemanı Heydər Əliyev ideyalarının layiqli davamçısı İlham Əliyevin həyat və fəaliyyətinə həsr etmişdir.

**516. Səmədov A.** Prezident İlham Əliyev / A.Səmədov; elmi red.: S.Nuriyev. – Bakı, 2007. –

**C.1.** Dəyanət. – 2007. – 423, [40] s.

Kitabın birinci cildində ulu öndər Heydər Əliyevin səhhəti ilə bağlı Azərbaycan xalqının yaşadığı ağrılı, intizarlı günlərdə baş verən hadisələr, müdrik bir qərarla cənab İlham Əliyevin respublikanın Baş naziri təyin edilməsi, bununla da xalqın nigaranlığına son qoyulması, seçkilərdəki möhtəşəm qələbəsi və onun müasir dövrün yeni lideri kimi irəli çıxması ətraflı şərh olunur.

**517. Səmədov A.** Prezident İlham Əliyev / A.Səmədov; bur. məs.: R.Ə.Mehdiyev; elmi red.: Ə.Həsənov. – Bakı, 2007. –

**C.2.** İnkişafın Azərbaycan yolu: "Narıncı" fəlakətdən qurtuluş. – 2007. – 462, [56] s.

Kitabın ikinci cildinə qaragüruhçu müxalifətin 2003-2005-ci illərdə hakimiyyəti zorakı vasitələrlə ələ keçirmək planlarının təhlil-şərhinə və Azərbaycan Pre-

zidentinin bu cəhdlərin qarşısını almaq üçün həyata keçirdiyi müdrik sistem-tədbirlərə, böyük bir regionu "narıncı" fəlakətdən xilas etməsinə həsr olunur.

518. **Siyasət zirvəsində** / tərt.: E.Nəsibov; elmi red.: S.Qəndilov, rəy.: A.Mirzəzadə, V.Abdullayev. – Bakı: "Yurd" NPB, 2004. – 437 s.

Kitabda ümummilli liderimiz Heydər Əliyevin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi fəaliyyəti, Azərbaycanın siyasi mühitində aparıcı mövqeyə çıxması onun nitqləri, müsahibələri və çıxışları əsasında işıqlandırılır.

519. **Siyasi olimpə doğru** / red.: R.Məcid. – Bakı: Nurlan, 2003. – 430 s.

Bu kitabda İlham Əliyevin 525-ci qəzetdə dərc olunan "Neft bizim üçün məqsəd yox, vasitə olmalıdır" adlı müsahibəsi xronoloji ardıcıllıqla yerləşdirilir və onun beş il ərzindəki siyasi fəaliyyəti öz əksini tapır.

520. **Strateq** / tərt.: Ana Vətən Partiyasının Siyasi Araşdırmalar Mərkəzi; bur. məs.: F.Ağamalı; tərc.: S.Abbasbəyli, R.Rəhimov. – Bakı: Oskar, 2003. – 352 s.

Kitab İlham Heydər oğlu Əliyevin Azərbaycanın neft strategiyasının reallaşdırılması istiqamətindəki uğurlu fəaliyyətindən bəhs edir.

521. **Yeni əsrdə, yeni lider** / tərt.: A.Xankişiyev, İ.Salmanov, R.Mirzəyev; red.: Q.Əfəndiyev. – Bakı: Araz, 2002. – 236 s.

Kitabda İlham Əliyevin Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini və Milli Olimpiya Komitəsinin prezidenti olarkən daxili arenadakı siyasi fəaliyyəti və ictimai rəy öz əksini tapmışdır.

### *Rus dilində*

**522. Андриянов В.** Ильхам Алиев / В.Андриянов, Г.Мираламов. – М.: Молодая гвардия, 2007. – 396 с. (Жизнь замечательных людей).

Авторы книги писатели Виктор Андриянов и Гусейнбала Мираламов объективно, с документальной точностью прослеживают жизненный путь Президента Азербайджана Ильхама Алиева, опираясь на впервые публикуемые архивные документы и свидетельства. Книга также показывает, как с детских, юношеских, студенческих лет последовательно формировался характер И.Алиева, государственного деятеля, достойного продолжателя дела Гейдара Алиева, общенационального лидера Азербайджана.

**523. Зенкович Н.** Ильхам Алиев: взгляд из Москвы / Н.Зенькович. – Москва: Яуза: Эксмо, 2008. – 512 с.

В книге рассказывается о жизни и деятельности нынешнего Президента Азербайджанской Республики Ильхама Алиева.

**524. Ильхам Алиев: Я верю в мой Азербайджан.** – Москва: Бослен, 2007. – 352 с.

Это книга – яркий, глубокий и образный рассказ Президента Азербайджана Ильхама Алиева о его родной

стране, путях её успешного развития, сегодняшнем дне республики, которую он возглавляет ровно четыре года.

**525. Цыганов О.** Ильхам Алиев: открытый мир. – Москва: Хроникёр, 2008. – 308 с.

В книге освещается политический курс Ильхама Алиева в международном пространстве.

# HEYDƏR ƏLİYEV İRSİNİN TƏDQİQİ

# HEYDƏR ƏLİYEV İRSİNİN TƏDQİQİ

## KİTABLAR

### *Azərbaycan dilində*

**526. Abbasbəyli A.** Azərbaycan mənim ürəyimdir / A.Abbasbəyli; red.: Ə.Abbasov. – Bakı: Azərnəşr, 2002. – 519 s.

Əsər dövrümüzün dahi dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin çoxşaxəli fəaliyyətinə həsr olunmuşdur.

**527. Abbasov V.** Liderlik fəlsəfəsi / V.Abbasov. – Bakı: Təhsil, 2004. – 202 s.

Müəllif Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində ölkənin hərtərəfli inkişafına, tərəqqisinə nail olan müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin titanik fəaliyyətini tarixin prizmasından keçirərək onu dünyanın tanınmış siyasətçiləri, sərkərdələri və dahi şəxsiyyətləri ilə müqayisəli şəkildə təhlil və tədqiq etmişdir.

**528. Abdullayev Ə.** Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası / Ə.İ.Abdullayev. – Bakı: Elm, 1999. – 155 s.

Kitab Ermənistanın Azərbaycana qarşı apardığı qəsbkarlıq müharibəsi ilə əlaqədar Heydər Əliyevin yeritdiyi sülh siyasətinin təhlilinə həsr olunmuşdur.

**529. Abdullayev V.** Müstəqilliyimizin strategiyası / elmi red.: İ.Həbibbəyli. – Bakı: Azərbaycan, 2002. – 416 s.

Kitabda ümummilli lider Heydər Əliyevin milli müstəqilliyimizin strategiyasının formalaşmasında misilsiz rolundan, milli dövlətçilik mənafeləri, xarici siyasət və Dağlıq Qarabağ probleminin həlli istiqamətində apardığı böyük siyasətdən söhbət açılır.

**530. Abdullazadə F.** Heydər Əliyev: siyasi portret / F.Abdullazadə. – Bakı: XXI, 1998. – 115 s.

Yeddi fəsildən ibarət olan bu kitabda Heydər Əliyevin uşaqlıq illərindən başlayaraq son dövrlərə qədər olan həyat və fəaliyyəti işıqlandırılmışdır.

**531. Ağayev V.** Azəri günəşi: trilogiya / V.Ağayev; red.: A.Abbasov. – Bakı: Nurlan, 2006. – 200 s.

Bu kitabda dövlət xadimi Heydər Əliyevin bədii obrazı yaradılmış, həyatının ən gərgin anları öz poetik ifadəsini tapmışdır.

**532. Ağsaqqal sözü:** akademik Budaq Budaqovun ümumi redaktəsi ilə / red.: R.Kərimova. – Bakı: Oğuz eli, 1998. – 168 s.

Görkəmli siyasi xadim Heydər Əliyevin 75 illik yubileyinə həsr olunmuş kitabda Ağsaqqallar Şurasının üzvləri olan B.Budaqovun, F.Qasımzadənin, M.Musayevin, Z.Qaralovun, M.Məhərrəmovun, H.Seyidovun və b. ulu öndər Heydər Əliyevin uzun illər boyu ölkəmizdə apardığı siyasi, iqtisadi, hüquqi və mədəni quruculuq işlərindən bəhs edən xatirələri toplanmışdır.

**533. Axundova E.** Heydər Əliyev: şəxsiyyət və zaman: 2 hissədə / E.Axundova; red.: V.Morozkov. – Bakı: Ozan, 2007 –

**H.1:** 1923-1969. – 2007. – 352, [32] s.

Beş ilə yaxın gərgin zəhmət, kitab qəhrəmanının uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələr, DTK arxivlərində, Prezidentin şəxsi arxivində iş ulu öndərimizin ən dolğun və obyektiv bioqrafiyasını yaratmaq cəhdi olan romanın unikal sənədli əsasını təşkil edir.

**534. Axundova E.** Heydər Əliyev: şəxsiyyət və zaman: 2 hissədə / E.Axundova; red.: V.Morozkov. – Bakı: Ozan, 2007 –

**H.2:** 1969-1982. – 2007. – 784, [24] s.

Kitab dərin təhlil və müəllif şərhləri ilə müşayiət edilən xeyli sayda az məlum olan fakt, epizod, eksklüziv informasiya ilə zəngindir. Yazıçının Heydər Əliyevlə şəxsi tanışlığı və dostluğu romana xüsusi emosionallıq və səmimiyyət gətirir.

**535. Aqaşova N.** Heydər Əliyev və Azərbaycan / N.Aqaşova, S.Abdullayev; red.: A.Abbasov. – Bakı: Əlfərül nəşriyyatı, 2006. – 224 s.

Ümummilli lider Heydər Əliyevin işıqlı xatirəsinə həsr edilən bu kitabda ulu öndərlə bağlı xatirələr toplanmışdır.

**536. Alışanova M.** Heydər Əliyev – iqtisadi müstəqilliyimizin banisidir / M.Alışanova; elmi red. və məsl.: Ş.Muradov. – Bakı: Çinar-Çap, 2006. – 214 s.

Dahi dövlət xadimi Heydər Əliyevin iqtisadi strategiyasına həsr edilmiş bu kitabda respublikamıza rəhbərlik etdiyi illərdə ölkənin müstəqil iqtisadiyyatının təşəkkülü, onun ayrı-ayrı sahələrinin inkişafı, bu sahələrdə aparılan uğurlu iqtisadi islahatlar və onların sosial nəticələri təhlil olunmuş, konkret statistik məlumatlar əsasında həmin dövrdə görülən nəhəng quruculuq işlərinə obyektiv qiymət verilmişdir.

**537. Andriyanov V.İ.** Heydər Əliyev / V.İ.Andriyanov, H.F.Mirələmov. – Bakı: Nurlan, 2008. – 559 s.

Yazıçılar Viktor Andriyanov və Hüseynbala Mirələmov arxiv mənbələrinə, Heydər Əliyevin yaxınlarının və doğmalarının, silahdaşlarının və yoldaşlarının xatirələrinə əsaslanıb, bu böyük dahinin həyat və fəaliyyəti, bioqrafiyasının məlum olmayan səhifələri haqqında dolğun və müfəssəl məlumat verirlər.

**538. Aran S.** Üfüqdə Nobel sülh mükafatı görünür / S.Aran. – Bakı: Azərbaycan, 2003. – 305 s.

XX yüzildə Azərbaycan xalqının və dövlətinin yetirdiyi ən görkəmli lider Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuş kitabda ulu öndərin dövlətçiliyimizin möhkəmlənməsi yolunda çoxşaxəli fəaliyyətini əks etdirən məqalə və müsahibələr toplanmışdır.

**539. Arzumanlı V.** Azərbaycan diasporu: reallıq, qayğılar, problemlər / V.Arzumanlı; red.: V.Həbiboğlu; rəy.: Ə.Tağıyev; AMEA Beynəlxalq Münasibətlər İnstitutu. – Bakı: Qartal, 2001. – 800 s.

Kitabda müəllif dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diasporumuzun ictimai-siyasi, sosial-mədəni həyatını izləmiş, onun bəzi maraqlı və qiymətli səhifələrini araşdırmışdır.

**540. Aslanov A.** Heydər Əliyev və AzərTAc / A.Aslanov; red.: V.Musayev, D.İsmayılov. – Bakı: Nurlan, 2005. – 178 s.

Kitabda ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif illərdə AzərTAcla bağlı fərman və sərəncamları, onların icrası ilə əlaqədar Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar, ümummilli lider Heydər Əliyevin əksər səfərlərinin iştirakçısı olmuş müəllifin son illərdə dərc olunmuş məqalə və müsahibələri toplanmışdır.

**541. Ataxallı B.** Bu yurd Heydər nağılıdı: şeirlər / B.Ataxallı; red.: M.Ələkbərli. – Bakı: Şur, 2004. – 80 s.

Kitaba şair Bəhlul Ataxallının xalqımızın ümummilli lideri, bəşəriyyətin dahi oğlu Heydər Əliyevə həsr olunan şeirləri toplanmışdır.

**542. Avropa Şurası və Azərbaycan**: sülh, əmin-amanlıq və demokratiya naminə. – Bakı, 2001. – 240 s.

Kitabda dünyamiqyaslı siyasətçi Heydər Əliyevin Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması istiqamətində gördüyü nəhəng işlərdən, sıx əməkdaşlıqdan bəhs olunur.

**543. Azərbaycan – ABŞ:** Dostluq və tərəfdaşlıq yollarında: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri: 12-28 fevral 2000-ci il. – Bakı, 2000. – 183 s.

Kitab ulu öndər Heydər Əliyevin 2000-ci ildə ABŞ-a işgüzar səfərinə həsr olunmuşdur. Həmçinin dövlət başçısının ölkə rəhbərləri ilə görüşü, Dağlıq Qarabağ münaqişəsi, Bakı-Ceyhan neft və Transxəzər qaz kəmərlərinin tikintisi ilə bağlı məsələlərin həlli yollarının müzakirəsi işıqlandırılmışdır.

**544. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Şuşa, 1996 –

**C.1:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. – 1996. – 300 s.

**545. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Göytürk, 1996 –

**C.2:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-1996-cı illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. – 1997. – 770 s.

**546. Azərbaycan beynəlxalq aləmdə:** 8 clddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Göytürk, 1996 –
**C.3:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar. – 1998. – 776 s.

**547. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Göytürk, 1996 –
**C.4:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar. – 1999. – 520 s.

**548. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Göytürk, 1996 –
**C.5:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu ildə xarici ölkələrə səfərlərinə dair. – 1999. – 484 s.

**549. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Nurlan, 1996 –
**C.6:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci ildə xarici ölkələrə səfərlərinə dair. – 2001. – 448 s.

**550. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Nurlan, 1996 –

**C.7:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci ildə xarici ölkələrə səfərlərinə dair. – 2002. – 344 s.

**551. Azərbaycan beynəlxalq aləmdə:** 8 cilddə / tərt.-müəl.: E.Abdullayev, F.Muradov. – Bakı: Nurlan, 1996 –
**C.8:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar. – 2003. – 458 s.

**552. Azərbaycan BMT ailəsində**. – Bakı, 2000. – 343 s.
Kitabda dünyamiqyaslı siyasətçi Heydər Əliyevin Prezidentlik dövründə Nyu-Yorka dəfələrlə edilən səfərləri və ölkəmiz ilə BMT arasında əməkdaşlığın dərinləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində gördüyü əhəmiyyətli işlər əks olunmuşdur.

**553. Azərbaycan – Böyük Britaniya**: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001) / red.: İ.Mirzəbəyli. – Bakı, 2001. – 451 s.
Kitabda müstəqil Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin prioritetlərindən biri olan Böyük Britaniya ilə diplomatik münasibətlərdə qarşılıqlı əlaqələrin qurulması və inkişafı, iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından ümummilli lider Heydər Əliyevin siyasi təcrübəsinin, regionda cərəyan edən prosesləri dəqiq qiymətləndirmək bacarığının tarixi rolundan bəhs olunur.

**554. Azərbaycan – Çin**: dostluq sərhədlər aşır. – Bakı, 2000. – 149 s.

Kitab Azərbaycan və Çin xalqları arasında mövcud olan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərindən bəhs edir. Xüsusilə dahi dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə gördüyü nəhəng işlərdən söhbət açır.

**555. Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri.** Xüsusi buraxılış. – Bakı: ADPU, 2008. – 192 s.

Məcmuədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr olunmuş "Ürəklərdə və tarixin yaddaşında əbədi yaşayacaq dahi şəxsiyyət" mövzusunda elmi konfransın materialları toplanmışdır.

**556. Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında** (İslam Konfransı Təşkilatının Kasablanka (1984-cü il), Tehran (1997-ci il), Məkkə (2005-ci il) və Dakar (2008-ci il) zirvə görüşlərinin materialları əsasında) / məsl.: A.Nadirov; bur. məs.: V.Süleymanov; Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. – Bakı: Apostrof, 2008. – 414 s.

Kitabda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin İslam Konfransı Təşkilatının Kasablanka və Tehran zirvə görüşlərindəki çıxış və müsahibələri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məkkə zirvə görüşündəki və İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən 33-cü sessiyasındakı çıxışları yer almışdır.

**557. Azərbaycan 1993**: anarxiyadan sabitliyə / red.: Ə.Mehdiyev. – Bakı, 2000. – 416 s.

Oxuculara təqdim olunan bu kitab 1993-cü ilin iyun-dekabr aylarında Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyəti, Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı və çoxşaxəli fəaliyyətini əks etdirir.

**558. Azərbaycan 1994**: 2 hissədə. – Bakı, 2002 –

**H. 1**: Milli dövlətçilik sınaq qarşısında. – 2002. – 472 s.

Toplu 1994-cü ildə Azərbaycanda ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti, ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu sahəsində həyata keçirdiyi daxili və xarici siyasətin əsas istiqamətlərini əks etdirir.

**559. Azərbaycan 1994**: 2 hissədə. – Bakı, 2002 –

**H. 2:** Milli dövlətçilik sınaq qarşısında. – 2002. – 432 s.

Toplunun ikinci hissəsinə daxil edilmiş materiallar 1994-cü ilin sentyabr-dekabr aylarında Azərbaycanın ictimai-siyasi həyatında cərəyan edən prosesləri və dahi öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu sahəsində çoxşaxəli fəaliyyətini ardıcıl izləməyə imkan verir.

**560. Azərbaycan 1995**: 3 hissədə / tərt.: Ə.Mehdiyev; red.: T.Ağayev. – Bakı, 2005 –

**H. 1:** Qarşıdurmadan milli həmrəyliyə. – 2005. – 456 s.

Üç hissədən ibarət olan toplunun birinci hissəsinə daxil edilmiş materiallar 1995-ci ilin yanvar-may aylarında Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti, ümummilli lider Heydər Əliyevin müstəqil

dövlət quruculuğu sahəsində həyata keçirdiyi daxili və xarici siyasətin əsas istiqamətlərini əks etdirir.

561. **Azərbaycan 1995**: 3 hissədə / tərt.: Ə.Mehdiyev; red.: T.Ağayev . – Bakı, 2005 –

**H. 2:** Qarşıdurmadan milli həmrəyliyə. – 2005. – 408 s.

Toplunun ikinci hissəsinə daxil edilmiş materiallar 1995-ci ilin iyun-sentyabr aylarında Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında cərəyan edən prosesləri və dahi dövlət xadimi Heydər Əliyevin müstəqil dövlət quruculuğu sahəsində çoxşaxəli fəaliyyətini ardıcıl izləməyə imkan verir.

562. **Azərbaycan 1995**: 3 hissədə / tərt.: Ə.Mehdiyev; red.: T.Ağayev . – Bakı, 2005 –

**H. 3:** Qarşıdurmadan milli həmrəyliyə. – 2005. – 456 s.

Toplunun üçüncü hissəsinə daxil edilmiş materiallar 1995-ci ilin oktyabr-dekabr aylarında Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında cərəyan edən prosesləri və ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu sahəsində çoxşaxəli fəaliyyətini ardıcıl izləməyə imkan verir.

563. **Azərbaycan milli dövlət quruculuğu yolunda** / bur. məs.: R.Mehdiyev, H.Orucov. – Bakı: Azərnəşr, 1996. – 368 s.

Kitabda ölkəmizin ictimai-siyasi həyatında baş vermiş proseslər, Azərbaycan dövlətçiliyini ağır sınaqlar

qarşısında qoymuş 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri və onların aradan qaldırılması istiqamətində dahi öndər Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində son nəticədə sağlam qüvvələrin qələbəsi, Azərbaycan dövlətçiliyinin qorunub saxlanması və möhkəmlənməsi zəngin faktlarla öz əksini tapır.

**564. Azərbaycan Respublikasının müstəqilliyinə və ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 82-ci ildönümünə həsr olunmuş** "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda Hüquq fakültəsi magistrantlarının 5-ci Elmi-praktik konfransının materialları (5-6 may, 2005-ci il ) / red.: R.O.Quliyeva. – Bakı, 2005. – 223 s.

Kitabda Azərbaycan Respublikasının müstəqilliyinə və ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 82-ci ildönümünə həsr olunmuş "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda Hüquq fakültəsi magistrantlarının 5-ci Elmi-praktik konfransının materialları toplanmışdır.

**565. Azərbaycan tarixinin parlaq səhifələri**. – Bakı: Azərbaycan, 1998. – 64 s.

Kitab dahi öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında verdiyi sərəncam və nitqlərdən ibarətdir.

**566. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev** / red.: M.Mərdanov; bur. məs.: E.Oral. – Bakı: Qafqaz Universiteti, 2002. – 180 s.

Kitabda 1991-2001-ci illəri əhatə edən Azərbaycan-Türkiyə əlaqələrinin xronologiyası, həmçinin bu əlaqələrin yaradılmasında və inkişaf etdirilməsində dünyaşöhrətli siyasətçi Heydər Əliyevin müstəsna rolu tarixi sənədlər əsasında təsvir olunmuşdur.

567. **Azərbaycanın gələcəyi etibarlı əllərdədir** / Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. – Bakı: Azərbaycan, 1999. – 152 s.

Kitabda görkəmli siyasi xadim Heydər Əliyevin gənclərimiz və idmançılarımız, eləcə də yeniyetmə və uşaqlarla bağlı keçirilmiş bəzi tədbirlərdə etdiyi çıxış və nitqləri, imzaladığı fərman və sərəncamları toplanmışdır.

568. **Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu** / elmi red.: C.Əliyev; bur. məs.: A.Məhərrəmov. – Bakı: BDU, 2001. – 229 s.

Kitabda Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi, Bakı Dövlət Universitetinin dünyaşöhrətli məzunu və fəxri doktoru Heydər Əliyevin bu təhsil ocağı ilə bağlı həyatının müxtəlif məqamları oxucuların diqqətinə çatdırılır.

569. **Balayev R.** Müdriklik xəzinəsi / R.Balayev. – Bakı: Adiloğlu, 2006. – 88 s.

Müəllif kitabda ulu öndər Heydər Əliyevin bioqrafik portretini, tarixi-siyasi fəaliyyətini tərənnüm etmişdir. Əsərdə Heydər Əliyev şəxsiyyətinə vurğunluq, onun möhtəşəm siyasi-mənəvi portretinə heyranlıq və sədaqət hər misrada diqqət önündədir.

**570. Bayramov Q.** Heydər Əliyev və Azərbaycan tarix elmi / Q.Bayramov; elmi red.: İ.Hüseynova; rəy.: A.Məmmədov, İ.Zeynalov. – Bakı: Təhsil, 2004. – 264 s.

Kitabda Azərbaycan tarixinin mühüm bir dövrünü əhatə edən Heydər Əliyev şəxsiyyəti, onun Azərbaycan tarix elminin inkişafında rolu, tariximizin mühüm problemlərinə dair yeni baxışları ətraflı təhlil olunur.

**571. Binnətova A.** Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı / A.Binnətova; red.: N.Süleymanov. – Bakı: Nurlan, 2004. – 80 s.

Kitabda görkəmli dövlət xadimi, dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan ədəbiyyatına böyük qayğısından, himayədarlığından bəhs olunur.

**572. Birlikdə yeni əsrə doğru:** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri. 27 iyul – 7 avqust 1997-ci il. – Bakı, 1998. – 416 s.

Kitabda dünyamiqyaslı dövlət xadimi Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri, səfər zamanı keçirdiyi görüşlər, danışıqlar, imzaladığı sənədlər haqqında bəhs olunur.

**573. Budaqov B.** Heydər Əliyev fenomeni / B.Budaqov. – Bakı: "İsmayıl" NPM, 2002. – 145 s.

Bu kitab böyük tarixi şəxsiyyət Heydər Əliyevin 30 ildən artıq bir zamanda Azərbaycan xalqının yalnız bu günü deyil, gələcəyini də təmin etmək baxımından

həyata keçirdiyi taleyüklü tədbirlərdən, torpaqlarımızın 20 faizini işğal etmiş, soydaşlarımızı yurd-yuvasından didərgin salmış erməni qəsbkarlarına qarşı apardığı mübarizədən bəhs edir.

**574. Camalov Y.** Heydər Əliyevin neft strategiyası davam edir... / Y.Camalov; rəy.: A.Bayramov, R.Əliheydərqızı. – Bakı: Qismət, 2004. – 176 s.

Kitabda milli sərvətimiz "qara qızıl"ın tarixinə aid maraqlı faktlar, Heydər Əliyevin neft strategiyasının mühüm istiqamətləri, bu strategiyanın şah damarı olan "Əsrin müqaviləsi"nin tale yolları və bu gün Heydər Əliyev kursunu inamla davam etdirən cənab Prezident İlham Əliyevin siyasi fəaliyyəti təhlil olunur.

**575. Cəfərov N.** Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə / N.Cəfərov. – Bakı: Çaşıoğlu, 2004. – 159 s.

Kitabda Türk dünyasının görkəmli dövlət və siyasət xadimi, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi portretinin xarakterik cizgiləri verilmişdir.

**576. Cəfərov N.** Azərbaycanşünaslığa giriş / N.Cəfərov; elmi red.: H.İmanov. – Bakı: AzAtaM, 2002. – 600 s.

Əsərin ideya-metodoloji əsasında böyük mütəfəkkir Heydər Əliyevin azərbaycançılıq barədəki fikirləri, mülahizələri dayanır.

**577. Cəfərov N.** Heydər Əliyev: Türk dünyasının böyük dövlət xadimləri seriyası. № 1 / N.Cəfərov; Azərbaycanda Atatürk Mərkəzi. – Bakı: AzAtaM, 2002. – 54 s.

Kitabda müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin siyasi portret-obrazının yaradılmasına cəhd edilmişdir.

**578. Çobanov M.** Görkəmli strategiyaçı / M.Çobanov; elmi red.: N.Xudiyev; red.: İ.İsmayılov; Azərbaycan Respublikası "Təhsil" Mərkəzi. – II nəşr. – Bakı: Borçalı, 2004. – 60, [20] s.

Kitabda Azərbaycan xalqının böyük oğlu, milli lider Heydər Əliyevin hərbi-strateji görüşləri və onun tarixi mərhələləri qısa şərh olunmuşdur.

**579. Davos**: **qlobal iqtisadiyyatın üfüqləri.** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Davos Dünya İqtisadi Forumu ilə əlaqədar İsveçrəyə işgüzar səfəri. 27-30 yanvar 2000-ci il. – Bakı, 2000. – 86 s.

Kitabda dünyaşöhrətli siyasətçi Heydər Əliyevin 1995-ci ilin yanvarında İsveçrəyə səfəri və ölkəmizin ilk dəfə olaraq Davos Dünya İqtisadi Forumunda təmsil olunmağı işıqlandırılmışdır.

**580. Demokratik seçkilərin əks-sədası** / tərt.: S.İsmayılov. – Bakı: Göytürk, 1999. – 352 s.

Kitabda Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatı, ulu öndər Heydər Əliyevin andiçmə mərasimindəki nitqi və yenidən Prezident seçilməsi münasibətilə onun ünvanına xarici ölkələrin dövlət və hökumət başçılarından, nazirlik, komitə və partiya rəhbərlərindən gələn on minlərlə təbriklərdən nümunələr verilmişdir.

**581. Dirçəliş illərində** / red.: A.Cəmil, A.Qurbanov. – Bakı: Azərbaycan, 1998. – 80 s.

Kitab-albomda dünyaşöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbərliyinə qayıdışından – 15 iyun 1993-cü ildən 1998-ci ilə qədər olan müddətdə Bakının bir rayonu (Binəqədi r.) timsalında xalqımızın mənafeyi, millətimizin sabahı naminə görülən müxtəlif yönlü quruculuq işlərinin əlvan fotoşəkillərdən ibarət tarixi məqamları əks olunmuşdur.

**582. Dövlətçilik müdrikliyi:** Azərbaycan müstəqillik yollarında mövzusunda elmi-nəzəri konfransın materialları (tarixi həqiqətlər, faktlar və reallıqlar). (Bakı, 2 may 2002-ci il) / tərt.: X.Kazımlı; red.: M.Əlizadə. – Bakı: Bakı Universiteti, 2002. – 525 s. – Üz qabığında: [Yeni Azərbaycanın qurucusu]

Kitabda 2 may 2002-ci ildə "Azərbaycan müstəqillik yollarında" mövzusunda Bakıda keçirilmiş elmi-nəzəri konfransın materialları toplanmışdır. Konfrans materiallarının əsas hədəfi ümummilli lider Heydər Əliyevin öz Vətəni qarşısındakı çoxsaylı xidmətlərinin diqqətə gətirilməsi, indiki və gələcək nəsillərə olduğu kimi çatdırılması zərurətindən ibarətdir.

**583. Dövlət müdriklik məktəbi**: "Heydər Əliyev və dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" mövzusunda 3-4 may 2001-ci il tarixdə keçirilmiş elmi-praktik konfransın materialları / red.: R.Mehdiyev, S.Qəndilov. – Bakı: Çaşıoğlu, 2000. – 215 s.

Kitabda Heydər Əliyevin dövlət idarəçiliyi nəzəriyyəsi və təcrübəsinə töhfəsi, respublikada ictimai-siyasi durumun yüksəlməsi, mənəvi-mədəni sferaların idarə olunmasının xüsusiyyətləri, dövlət və ictimai həyatın demokratikləşməsi, idarəçi kadrların hazırlanması və səmərəli istifadə olunması və s. məsələlər Heydər Əliyevin ideyaları və praktiki fəaliyyəti kontekstində müzakirə olunur.

**584. Dünyanı heyran qoyan insan** / tərt.-red.: A.Aslanov, V.Musayev, D.İsmayılov. – Bakı: Azərnəşr, 2004. – 376 s.

Kitabda görkəmli siyasi və dövlət xadimlərindən, diplomatlardan, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərindən tutmuş biznes nümayəndələrinə qədər ən müxtəlif peşə sahiblərinin otuz ildən artıq siyasi hakimiyyətin zirvəsində olan ümummilli liderimiz Heydər Əliyev haqqında fikirlərinin bir hissəsi toplanmışdır.

**585. Elm [qəzet]: xüsusi buraxılış** / təsisçi: AMEA Rəyasət Heyəti və Ali Attestasiya Komissiyası; red. hey.: M.Kərimov, C.Əliyev, A.Mehdiyev və b.; baş red.: A.Əsədova. – Bakı: Nurlan, 2003. – 289 s. – Üz qabığında: “Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq” [H.Əliyev].

Məcmuə ümummilli lider Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasına göstərdiyi böyük diqqət və qayğıdan bəhs edir.

**586. Əbədiyaşar insan** / red.: Ə.Manafov. – Bakı: Təhsil, 2004. – 129 s.

Kitabda Azərbaycan xalqının dahi oğlu, dünyanın böyük siyasətçisi, ümummilli liderimiz Heydər Əliyev haqqında dövlət, elm, mədəniyyət xadimlərinin, ayrı-ayrı iş adamlarının xatirələri, ürək sözləri və şairlərimizin ona ithaf etdiyi şeirlər və poemalar toplanmışdır.

**587. Əhmədov T.** Heydər Əliyev və Bakı metropoliteni / T.Əhmədov; red.: Z.Şahsevənli, T.Dadaşova. – Bakı: Azərbaycan, 2003. – 148 s.

Bakı metropoliteninin 35 illiyinə həsr olunmuş bu kitabda toplanmış materiallarda Heydər Əliyevin gördüyü nəhəng işlərdən bəzi epizodlar təsvir olunmuşdur. Həmçinin yubiley təntənələrində ümummilli lider Heydər Əliyevin dərin məzmunlu nitqi, Moskva, Kiyev, Tbilisi metropoliteni nümayəndələrinin Ulu öndərin gördüyü işlər haqqında söylədikləri maraqlı fikirlər oxuculara təqdim olunmuşdur.

**588. Əhmədova S.** Heydər Əliyevin dil siyasəti / S.Əhmədova; Azərbaycanda Atatürk Mərkəzi; elmi red.: N.Cəfərov; rəy.: N.Xudiyev. – Bakı: MBM, 2008. – 96 s.

Kitabda Azərbaycan dilinin dövlət dili kimi inkişafı uğrunda ümummilli lider Heydər Əliyevin apardığı geniş fəaliyyətdən bəhs olunur.

**589. Əkbərov B.** Heydər Əliyev Milli Konstitusiyamızın yaradıcısı və banisidir / B.Əkbərov; məs. red.: R.Məmmədov; rəy.: Z.Əsgərov; red.: A.Qəhrəmanov. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998. – 96 s.

Kitaba ümummilli lider Heydər Əliyevin Azərbaycanın ilk Milli Konstitusiyasının yaradıcısı və banisi olması, Lissabon sammitində iştirakı və Amerika Birləşmiş Ştatlarına ilk tarixi səfəri haqqında məqalələri, müsahibələri, habelə Böyük Heydər Əliyev ideyalarına söykənmiş Azərbaycan dövlətçiliyinə və digər aktual məsələlərə dair nəşr olunmuş əsərlər haqqında resenziyaları və başqa yazıları daxil edilmişdir.

**590. Ələmşahov B.** Fikirlərin vəhdəti / B.Ələmşahov, N.Bəxşeyişoğlu; red.: N.Xudiyev; bur. məs.: Ş.Abuşov. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998. – 95 s.

Kitabda Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev haqqında mənsubiyyətindən, mövqeyindən, əqidəsindən asılı olmayaraq müxtəlif şəxslərin fikirləri toplanmışdır.

**591. Əliyev A.** Heydər Əliyev və ədəbiyyatımız / A.Əliyev; elmi red.: A.Hacıyev; rəy.: M.Balayev, A.Eminov. – Bakı: Nurlan, 2007. – 307 s.

Monoqrafiyada görkəmli şəxsiyyət, böyük diplomat, Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin çoxcəhətli, nəhəng fəaliyyətinin bir istiqaməti – Azərbaycan ədəbiyyatına qayğısı, məhəbbəti və rəhbərliyi siyasi baxışlar fonunda araşdırılır.

**592. Əliyev E.** Qoşa zirvə / E.Əliyev; red.: T.Qarayev; rəy.: A.Babayev. – Bakı: Elm, 2001. – 226 s.

Bu kitab türk dünyasının qüdrətli oğlu Heydər Əliyevə və ondan bəhrələnmiş, mənəvi qida almış İlham Əliyevə həsr olunub.

**593. Əliyev E.** Sönməz Günəş: poema: 2 hissədə.
**H.1** / E.Əliyev; red.: B.Bağırov. – Bakı: Nurlan, 2002. – 200 s.

Poemada doğma torpağa, müqəddəs yurd yerlərinə bağlılıq, poetik duyum və səmimiyyətlə ümummilli lider Heydər Əliyevə olan inam və məhəbbət xüsusi bacarıqla tərənnüm edilmişdir.

**594. Əliyev E.** Sönməz Günəş: poema: 2 hissədə.
**H.2** / E.Əliyev; red.: B.Bağırov. – Bakı: Nurlan, 2002. – 234 s.

Müəllifin təsvir və tərənnüm etdiyi sahəyə bələdliyi əsərin qəhrəmanı olan dahi şəxsiyyətin obrazını parlaq şəkildə yarada bilməsindən daha aydın görünür.

**595. Əliyev Q.** Heydər Əliyev və milli mentalitet fəlsəfəsi / Q.Əliyev. – Bakı: Qismət, 2003. – 247 s.

Kitabda xalqın mentalitetinin qaynaqları, tarixi yaddaş, Vətən amalı, azərbaycançılıq ideyası, mentalitet kimi az tədqiq olunan problemlər şərh olunur.

**596. Əliyev N.** Azərbaycan neft və qaz sənayesi XXI əsrin astanasında – Azerbaijan oil and gas industry on the eve of the XXI century / N.Əliyev, X.Yusifzadə, E.Şahbazov; Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti. – Bakı. – 68 s.

Kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə neft və qaz sənayesinin inkişafındakı roluna həsr olunmuşdur.

**597. Əliyev N.** Heydər Əliyev və Bakının memarlığı / N.Əliyev; red.: A.Əliyeva. – Bakı: Ulduz, 2005. – 224 s.

XX əsrin 70-80-ci illərində keçmiş SSRİ və dünya əhəmiyyətli yeni sənaye və ictimai obyektlərin Azərbaycan Respublikasının rayonlarında, yaxud Bakıda tikilməsinə nail olmuş ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr olunmuş kitabda Bakının tarixi binaları, memarlıq ansamblları, parkları, bağları və nəhayət, onu yaradan insanların bədii-estetik mədəniyyətindən bəhs olunur.

**598. Əliyev R.** Heydər Əliyev, din və mənəvi dəyərlər / R.Əliyev; red.: A.Paşazadə, A.Məmmədov. – Bakı, 1998. – 82 s.

Kitabın müəllifi ümummilli lider Heydər Əliyevin müxtəlif məclislərdə dinə dair çıxış və nitqlərinin təhlili əsasında dövlətin din və mənəvi dəyərlər məsələsinə mövqeyini açıqlamağa çalışır.

**599. Əliyev V.** Heydər Əliyevin dil siyasəti / V.Əliyev; red.: N.Cəfərov; rəy.: Y.Seyidov, M.Məmmədov. – Bakı: Nurlan, 2003. – 99 s.

Bu kitabda Azərbaycan dilindən və onun sehrindən, dilimizin inkişafından və müstəqil Azərbaycan dövlətinin qoruyucusu Heydər Əliyevin əmək fəaliyyətindən söhbət açılır.

**600. Əliyeva-Kəngərli A.** Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar / A.Əliyeva-Kəngərli; elmi red.: A.Xələfov; rəy.: R.Kazımov, X.İsmayılov. – Bakı: Elm, 2007. – 394 s.

Bu nəşr kitabxanaların müasirləşdirilməsi və modernləşdirilməsi, informasiya və kommunikasiya texnologiyaları ilə təmin olunması, müasir dövrümüzdə bütövlükdə cəmiyyətin və elmin informasiya təminatına ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qayğı və diqqətini əks etdirir.

**601. Əlizadə M.** Milli müdrikliyin Heydər Əliyev zirvəsi / M.Əlizadə; red.: Ə.Həsənov. – Bakı: Bakı Universiteti, 2006. – 752 s.

Kitab ümummilli liderimiz Heydər Əliyevin şəxsiyyət və siyasi əqidə bütövlüyünə, əyilməzliyinə və dönməzliyinə, müdrikliklə həyata keçirdiyi tədbirlərdəki aqilliyinə, qüdrətli dövlət, bütöv, vahid Vətən ideyalarını bu gün də davam etdirən əqli bütövlüyünə həsr edilmişdir.

**602. Əmirxanlı G.** Ucalıq himni: Poema / G.Əmirxanlı. – Bakı: Elm, 2004. – 143 s.

Kitab xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin həyat və yaradıcılığına həsr olunub.

**603. Əsədov O.** Heydər Əliyev = Heydar Aliyev / O.Əsədov; tərc.: Z.Əhmədov, Ə.Əfəndiyev; red.: R.Cəbrayılov. – Bakı: Çaşıoğlu, 2008. – 407 s.

Kitabda istiqlal mübarizəsi boyu əldə etdiyimiz ən böyük nailiyyətlərin müəllifi olan tarixi şəxsiyyət Heydər Əliyevin xidmətləri, ulu öndərin rəhbərliyi ilə aparılan demokratik-hüquqi dövlət quruculuğu prosesinin xarakteri əhatəli təhlil edilmiş, islahatların real nəticələri konkret faktlar əsasında qiymətləndirilmişdir.

**604. Əsgəroğlu İ.** Zəmanəmizin böyük azərbaycanlısı / İ.Əsgəroğlu, A.İbrahimov; red.: N.Aqaşova. – Bakı: Ozan, 2002. – 388 s.

Kitab Azərbaycan dövlətçiliyinin qarantı, azərbaycançılıq ideologiyasının ideoloqu və qurucusu ulu öndər Heydər Əliyevin apardığı uğurlu xarici və daxili siyasətinə həsr olunub.

**605. Əsgəroğlu İ.** Xilaskar. Qurucu. Fövqəlbəşər / İ.Əsgəroğlu. – Bakı: Ozan, 2004. – 296 s.

Kitabda müəllif ömrünü tamamilə siyasətə, qurub-yaratmağa həsr etmiş Heydər Əliyevin Vətənə, xalqa sevgisinin, xalq qarşısında xidmətlərinin heç nə ilə müqayisəyə gəlmədiyini, xalqına həmişə başucalığı, nüfuz və hörmət gətirdiyini vurğulamağa çalışır.

**606. Gələcək gənclərindir** / Azərbaycan Respublikası İdman və Turizm Nazirliyi; red.: Ə.Qarayev. – Bakı: Azərbaycan, 2004. – 461 s.

Kitabda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-2003-cü illərdə uşaq və gənclərlə bağlı tədbirlərdəki çıxışları, nitqləri və təbrikləri qeyd olunmuşdur.

**607. Hacıyev İ.** Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası / İ.Hacıyev; red.: İ.Həbibbəyli; AMEA Naxçıvan bölməsi. – Bakı: Elm, 2003. – 164 s.

Kitabda görkəmli dövlət xadimi Heydər Əliyevin 35 ilə yaxın bir zamanda Azərbaycan dövlətinə rəhbərlik etdiyi müddətdə həyata keçirdiyi taleyüklü tədbirlərdən, milli tarixi yaddaşımızın bərpası üçün imzaladığı fərman və sərəncamların əhəmiyyətindən bəhs edilir.

**608. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır** / tərt.: N.İbrahimov, İ.Şükürov; rəy.: Q.Hüseynli. – Bakı: Azərbaycan, 1994. – 175 s.

Kitabda dünyaşöhrətli siyasətçi Heydər Əliyevin xarici ölkə səfərlərindən, onun tərəfindən gənc, müstəqil dövlətin formalaşdırılan xarici siyasət istiqamətindən ətraflı söz açan materiallar və fotosənədlər toplanmışdır.

**609. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır** / red.: R.Mirzəyev; bur. məs.: B.Sadıqov. – Bakı. – 124 s.

Kitabda ölkəmizin neft emalı sənayesinin yeni texnika və texnologiya ilə təchizində, müasir qurğuların alınmasında və inşasında müdrik dövlət xadimi Heydər Əliyevin əvəzsiz xidmətlərindən məhəbbətlə söhbət açılır.

**610. Heydər Əliyev**: **biblioqrafik məlumat kitabı** / tərt.: A.Xələfov, S.Sadıqova; red. və ön sözün müəl.: A.Məhərrəmov. – Bakı: Bakı Universiteti, 2003. – 435 s. (Dünyanın görkəmli dövlət xadimləri).

Kitabda Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin tükənməz zəngin irsi oxucuların diqqətinə çatdırılır.

611. **Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik"** – Heydar Aliyev: "We can not allow the seccond armenian state be established in the territory of Azerbaijan" – Heydar Aliyev: "Nous ne pouvons pas admettre l'apparition sur le territorie de l'Azerbaidjan du deuxiinu stat arminien" – Гейдар Алиев: "Мы не можем допустить возникновения на территории Азербайджана второго армянского государства" / "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana; red. hey.: T.Babayev; red.: M.Babayeva; bur. məs.: V.Süleymanov. – Bakı: Əbilov, Zeynalov və oğulları, 2006. – 472 s. [Azərbaycan, ingilis, fransız və rus dillərində]

Kitaba ATƏT-in 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda və 1999-cu ildə İstanbulda keçirilmiş zirvə toplantılarının bəzi materialları daxil edilmişdir.

612. **Heydər Əliyev: Deyilən söz yadigardır:** xatirə nəşri / Azərbaycanda Atatürk Mərkəzi; red.: N.Cəfərov; tərt.: E.Qaraxanlı, S.Babullaoğlu. – Bakı, 2008. – 31 s.

Bu nəşrdə ulu öndər Heydər Əliyevin dövlətçilik, müstəqillik, demokratiya, tarix və s. haqqında deyilən fikirləri toplanmışdır.

613. **Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili** / Azərbaycan EA Nəsimi ad. Dilçilik İnstitutu. – Bakı: Elm, 1998. – 195 s.

Kitabda dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanda dil quruculuğu sahəsində gördüyü işlərdən, onun Azərbaycan dili və nitq mədəniyyəti barədəki fikirlərindən danışılır.

**614. Heydər Əliyev dövlətçilik haqqında** (kəlamlar, sitatlar, aforizmlər) / ön sözün müəl. və red.: X.Vəliyev. – Bakı: Adiloğlu, 2008. – 168 s.

Kitabda ulu öndər Heydər Əliyevin irsi kontekstində siyasi-hüquqi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın aktual problemləri ilə bağlı fəlsəfi yüklü fikirləri toplanıb təsnif edilmişdir.

**615. Heydər Əliyev dünyanın gözü ilə** / tərt.: E.Miraləm, R.Qaraxanlı; red.: T.Tofiqqızı. – Bakı: Təhsil, 2003. – 148 s.

Kitabda dünyanın məşhur siyasi xadimlərinin Heydər Əliyevin siyasi fəaliyyəti haqqında fikirlərinin bir hissəsi, eyni zamanda Heydər Əliyevə həsr olunmuş bir neçə məqalə öz əksini tapmışdır.

**616. Heydər Əliyevə səs verirəm** / bur. məs.: Ə.Elbrus, T.Taisoğlu; red.: R.Əşirqızı, Ə.Vedili. – Bakı: Qorqud, 1998. – 208 s.

Kitab Azərbaycan Respublikasının dövlət işçiləri və ziyalılarının Heydər Əliyev haqqında ürək sözlərindən ibarətdir.

**617. Heydər Əliyev iqtisadi idarəetmə məktəbi.** Bur. 2 / elmi red.: A.Nadirov, M.Sadıqov. – Bakı: İqtisad Universiteti, 2003. – 282 s.

Dahi siyasi xadim Heydər Əliyevin anadan olmasının 80 illiyinə ithaf edilmiş kitabda Heydər Əliyevin iqtisadi idarəetmə məktəbinin 2001-2003-cü illərdə dinlənilmiş məruzələrindən seçmələr verilmişdir.

**618. Heydər Əliyev iqtisadi inkişaf strategiyasının təntənəsi:** məqalələr toplusu: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinə həsr olunur / bur. məs.: Ə.Bayramov. – Bakı: İqtisad Universiteti, 2008. – 198 s.

Kitabda ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının mahiyyəti və struktur istiqamətlərinin sistemli tədqiqinə həsr edilmiş məqalələr toplanmışdır.

**619. Heydər Əliyevin İran İslam Respublikası ilə əlaqədar baxışları**. – Bakı: Çaşıoğlu, 2004. – 115 s.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin onillik rəhbərliyi dövründə Azərbaycan Respublikası əlaqələrinin araşdırıldığı bu kitab İran İslam Respublikası ilə ikitərəfli münasibətlərin müxtəlif məsələlərinə və ötən on ildə regiondakı proseslərə dair ulu öndərin bütün baxış, mövqe və fikirlərini ehtiva edir.

**620. Heydər Əliyevin yeni neft strategiyası** = Heydar Aliyev's new oil strategy. – Bakı, 2001. – 194 s.

Kitab xalqımızın böyük oğlu, möhtərəm Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası və onu uğurla həyata keçirməsindən bəhs edir.

**621. Heydər Əliyev irsi – Azərbaycanın davamlı inkişaf strategiyası**: konfrans materialları. – Bakı: Azərbaycan, 2006. – 784 s.

Kitaba Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Azərbaycanın ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası" mövzusunda keçirilən konfransın materialları daxil edilmişdir.

**622. Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi**: beynəlxalq elmi-praktik konfransın materialları / elmi red.: A.İsgəndərov. – Bakı: Azərbaycan, 2007. – 280 s.

Lənkəran Dövlət Universitetində 23 dekabr 2006-cı il tarixində keçirilən "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi" adlı konfransın materialları ümummilli lider Heydər Əliyevin irsinin öyrənilməsi, qorunması, tətbiqi ilə yanaşı, Azərbaycanın müasir dirçəlişinin müəllifi olan İlham Əliyevin bu irsi bacarıqla və qətiyyətlə inkişaf etdirməsi nəticəsində əldə olunan uğurların və qarşıda duran vəzifələrin təhlilinə həsr olunmuşdur.

**623. Heydər Əliyev işığı – ipək yolu** / red.: Hidayət. – Bakı: Qismət, 2001. – 245 s.

Kitabda zəmanəmizin görkəmli siyasi xadimi, əsrimizin sonlarının ən böyük hadisəsi – qədim İpək Yolunun bərpaçısı Heydər Əliyev haqqında Azərbaycan ziyalılarının ürək sözləri toplanmışdır.

**624. Heydər Əliyev mədəni irsimizin keşiyində:** 2 kitabda.

**K.1.** – Bakı, 2001. – 440 s.

Kitabda Heydər Əliyevin ədəbi irsin qorunması və təbliği sahəsində keçirdiyi tədbirlər və görüşlər toplanmışdır.

**625. Heydər Əliyev mədəni irsimizin keşiyində:** 2 kitabda. K.2. – Bakı, 2001. – 548 s.

Kitabda Heydər Əliyevin incəsənətin teatr, kino, balet, musiqi, memarlıq və heykəltəraşlıq, rəssamlıq, tətbiqi sənət kimi sahələrində çalışan xarici ölkələrin tanınmış, görkəmli incəsənət ustaları ilə görüşləri, mükalimələri verilmişdir.

**626. Heydər Əliyev müasir Azərbaycan parlamentinin banisidir** / tərt.-müəl.: S.Mirzəyev, M.Qayıbov; red.: O.Əsədov. – Bakı: Milli Məclisin nəşri, 2008. – 495 s.

Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi və ölkə Parlamentinin 90 illiyi münasibəti ilə nəşr olunmuşdur.

**627. Heydər Əliyev. Müdrik fikirlər.** – Bakı, 2008.

**K.1.** İyun – 1993 – 1998 oktyabr. – 2008. – 399 s.

Kitabda ümummilli lider, müdrik dövlət xadimi Heydər Əliyevin dövlətçilik, müstəqillik, demokratiya, iqtisadiyyat, dil, təhsil və elm, mədəniyyət və incəsənət, ziyalılar və tarixi şəxsiyyətlər barədə, tarix və tarixi hadisələr və s. haqqında söylədiyi dəyərli fikirləri toplanıb təsnif edilmişdir.

**628. Heydər Əliyev. Müdrik fikirlər. –** Bakı, 2008 – 2009.

**K.2.** Oktyabr – 1998 – 2003 oktyabr. – 2009. – 415 s.

Kitabda ümummilli lider, müdrik dövlət xadimi Heydər Əliyevin dövlətçilik, müstəqillik, demokratiya,

iqtisadiyyat, dil, təhsil və elm, mədəniyyət və incəsənət, ziyalılar və tarixi şəxsiyyətlər barədə, tarix və tarixi hadisələr və s. haqqında söylədiyi dəyərli fikirləri toplanıb təsnif edilmişdir.

629. **Heydər Əliyev. Müstəqilliyimiz əbədidir:** çoxcildliyin I-IX cildlərinin köməkçi aparatı / lay. rəh.: Ə.Qarayev; bur. məs.: K.Tahirov; elmi məsl.: S.Məmmədəliyeva; red.: G.Səfərəliyeva, S.Mütəllimova. – Bakı, 2008. – 336 s.

Kitabda ulu öndər Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin I-IX cildlərinin köməkçi aparatı (qeydlər, mövzu, coğrafi və şəxsi adlar göstəricisi) tərtib olunmuşdur.

630. **Heydər Əliyev – 80**: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. – Bakı, 2003. – 55 s.

Kitabda ulu öndər Heydər Əliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda insan hüquqlarının təminatı" mövzusunda keçirilən elmi-praktik konfransın materialları toplanmışdır.

631. **Heydər Əliyev: Təhsil. Bilik. Məktəb** / Azərbaycan Müəllimlər İnstitutu; tərt.: Ə.İsmayılov; red.: A.Naxçıvanlı. – Bakı: Müəllim, 2006. – 386 s.

Bu kitabda elmi, təhsili, biliyi daim yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyevin ölkənin

əqli potensialını formalaşdıran təhsil, bilik, məktəb və ali təhsil müəssisələrinə dair ideya və fikirləri toplanmışdır.

632. **Heydər Əliyev – 75** / tərt.: S.Xəlilov; red.: R.Mehdiyev. – Bakı: Azərbaycan Universiteti, 1998. – 183 s.

Kitabda ulu öndər Heydər Əliyevin 75 illik yubileyi münasibətilə xarici ölkələrdən gələn təbriklər çap olunmuş və onun siyasi həyatının mühüm məqamları əks olunmuşdur.

633. **Heydər Əliyev və Azərbaycan ədəbiyyatı** / red.: B.Nəbiyev. – Bakı: Elm, 1998. – 180 s.

Kitabda ümummilli lider Heydər Əliyevin folklorumuz, klassik ədəbi irsimiz, müasir ədəbiyyatımız haqqında mülahizələri şərh edilir, ədəbiyyatımızın inkişafı ilə bağlı işləri zəngin faktlar əsasında açıqlanır.

634. **Heydər Əliyev və Azərbaycan incəsənəti** / Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu; red.: B.Nəbiyev, R.Əfəndiyev; rəy.: B.Qurbanov. – Bakı: Elm, 2000. – 124 s.

Kitabda ulu öndər Heydər Əliyevin incəsənətimizin müxtəlif sahələrini əhatə edən mülahizələri şərh edilir, musiqimizin, təsviri sənətimizin, teatr və kinomuzun inkişafında böyük xidmətləri açıqlanır.

635. **Heydər Əliyev və Azərbaycan memarlığının inkişafı**: Azərbaycan Respublikasının Prezidenti, Zati-Aliləri Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə həsr olun-

muş elmi-praktik konfransın materialları / tərt.: N.Əliyev; red.: G.Məmmədova. – Bakı: Nurlan, 2003. – 165 s.

Ümummilli lider Heydər Əliyevin 80 illik yubileyinə həsr olunan monoqrafik tədqiqat işi ulu öndərin son 30 ildə Azərbaycan Respublikasının memarlıq və şəhərsalma sahəsinin inkişafındakı roluna həsr edilmişdir.

636. **Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi** / müəl.-tərt.: S.Xəlilov; red.: R.Mehdiyev. – Bakı: Azərbaycan Universiteti, 2002. – 232 s.

Kitab görkəmli dövlət xadimi Heydər Əliyevin ideyaları əsasında formalaşan azərbaycançılıq təliminin elmi-nəzəri və ideoloji bir sistem şərhinə həsr olunmuşdur.

637. **Heydər Əliyev və Azərbaycan Parlamenti**: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışları / tərt.: A.Babayev, H.Babayev; red.: M.Ələsgərov. – Bakı, 2003. – 542 s.

Kitabda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1991-2001-ci illər ərzində Parlamentdə etdiyi çıxışlar, həmçinin dövlət rəsmilərinin Heydər Əliyevin müstəqil dövlətin peşəkar parlamentinin formalaşdırılması işində həlledici rolundan bəhs edən məqalələri toplanmışdır.

638. **Heydər Əliyev və Azərbaycan rabitəsi** / tərt.: M.İsmayılov; lay. müəl.: N.Əhmədov, M.Əmirov; red.: X.Abbasov. – Bakı, 2002. – 136 s.

Kitabda 1970-ci illərdən başlayaraq bu günə qədər rabitə sahəsində qazanılan nailiyyətlərdən, Heydər Əliyevin rabitənin inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs olunur.

**639. Heydər Əliyev və Azərbaycanda insan hüquqlarının təminatı**: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. – Bakı, 2003. – 56 s.

Kitab ulu öndər Heydər Əliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materiallarından ibarətdir.

**640. Heydər Əliyev və Bakı Dövlət Universiteti** / tərt.: Ə.Əhmədov, ön sözün müəl. və bur. məs.: M.Mərdanov. – Bakı, 1997. – 136 s.

Kitabda Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin Bakı Dövlət Universiteti ilə əlaqələri, onun BDU-ya diqqəti və qayğısının tarixi məqamları göstərilir.

**641. Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi** / red.: S.Aran. – İstanbul: Kutup Yıldızı, 2007. – 309 s.

Toplu Türkiyədə təhsil alan tələbələr arasında 2007-ci ilin may ayında ulu öndər Heydər Əliyevin 84-cü ildönümü münasibətilə "Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi" mövzusunda keçirilən elmi-praktik konfransın materiallarını əks etdirir.

**642. Heydər Əliyev və dövlətin aqrar siyasəti: 1993-2003** / tərt.: D.Lətifov; məs. red.: E.İbrahimov. – Bakı: Gənclik, 2003. – 776 s.

Kitaba dövlətin aqrar siyasətinin həyata keçirilməsi üçün ümummilli lider Heydər Əliyevin fəaliyyətini, tarixi xidmətini əks etdirən müşavirə, konfrans və görüşlərdəki çıxışları və nitqləri, imzaladığı qanunlar, verdiyi fərman və sərəncamlar daxil edilmişdir.

**643. Heydər Əliyev və İnformasiya-Kommunikasiya Texnologiyaları siyasəti** / Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi. – Bakı, 2007. – 176 s.

Kitabda ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən çox müddətdə respublikada rabitənin, elektron avadanlıqların, informasiya texnologiyaları və telekommunikasiyanın inkişafı və müasir səviyyəyə yüksəlməsi üçün gördüyü işlərin xülasəsi verilmişdir.

**644. Heydər Əliyev və qanunçuluq:** çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar. K.1 / ön sözün müəl. və red.: X.Vəliyev. – Bakı: Adiloğlu, 2008. – 432 s.

Kitabda müasir Azərbaycan dövlətinin memarı, ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyunundan sonrakı dövrdə müstəqil dövlətimizin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi, qanunçuluğun, insan hüquqlarının, ictimai-siyasi sabitliyin qorunması

sahəsində gördüyü işlər, eləcə də hüquq-mühafizə orqanları ilə keçirdiyi çoxsaylı görüşləri, çıxışları, müraciətləri, bəyanatları, müvafiq fərman və sərəncamları əksini tapmışdır.

**645. Heydər Əliyev və mədəniyyət:** müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; ön sözün müəl.: Ə.Qarayev; tərt.: S.Məmmədəliyeva, T.Əhmədov; red.: L.Məmmədova. – Bakı: Nurlar NPM, 2008 –

**C.1**: 1969-1982, 1993-1996. – 2008. – 504 s.

